Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 3 (8026) BAZAR, 6 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Bataqlıqlar üzərində tikilən modern sənaye kompleksi

### Neftçala Sənaye Məhəlləsi yeni iqtisadi inkişaf strategiyasının bəhrəsidir

**Zamanın tələblərinə uyğun olaraq ölkəmizdə aparılan islahatlar, uğurla həyata keçirilən dövlət proqramları, genişmiqyaslı infrastruktur layihələri, biznes və investisiya mühitinin davamlı surətdə yaxşılaşdırılması, özəl sektora dövlət dəstəyi və makroiqtisadi sabitlik güclü sənayenin formalaşdırılması üçün əlverişli şərait yaradıb.**

Prezident İlham Əliyevin son illərdə həyata keçirdiyi sənayeləşmə siyasəti nəticəsində yüzlərlə müasir müəssisə açılıb, yerli məhsulların istehsalı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi çoxalıb.

#### Sənayenin inkişafına dair dövlət proqramı bəhrəsini verir

Prezident İlham Əliyevin "Azərbaycanın gələcək inkişafı sənayenin inkişafı ilə bağlı olmalıdır" strateji xəttinə uyğun olaraq, prioritet hədəf kimi seçilən iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən biri də məhz sənayeləşmə və qeyri-neft sənayesinin inkişafıdır. Artıq "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən proseslər öz bəhrəsini verməkdədir.

Ölkəmizdə qeyri-neft sektorunun innovativ və yüksək texnologiyalara əsaslanan inkişafını təmin etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq, eləcə də regionlarda kənd təsərrüfatı ilə yanaşı, sənaye sahəsində çalışmaq istəyənlərin maraqlarının təmin edilməsi məqsədilə sənaye parkları və məhəllələri yaradılır.

Azərbaycan Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli fərmanına əsasən, respublikamızda sənaye məhəllələrinin yaradılması istiqamətində həyata keçirilən layihələr 2017-ci ildən reallığa çevrilib. Yəni, 2017-ci il Azərbaycan sənaye sektorunda yeni mərhələnin başlanğıcı kimi tarixə yazıldı, desək, yanılmarıq. Çünki 2017-ci ilin sentyabr ayında Azərbaycanın ilk sənaye məhəlləsi olan Neftçala Sənaye Məhəlləsi fəaliyyətə başlayıb.

#### Kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyi

Sənaye məhəllələrinin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin təmin edilməsi, əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır.

Ardı 3-cü səh.



## Komandanın diplomat gedişi

### İlham Əliyev Ermənistanı həm təcrid, həm də bütün imkanlardan məhrum edib



**Keçən zaman göstərir ki, Ermənistanın işğal siyasətinə son qoymaması və Azərbaycanın ərazi bütövlüyünü tanımadığı təqdirdə onun iflası qaçılmazdır. Çünki Ermənistanın təcriddən xilas olması yalnız Azərbaycandan asılıdır.**

Əldə edilən nailiyyətlərdən məharətlə istifadə edən Prezident İlham Əliyev işğalçı Ermənistana həm diplomatiya müstəvisində böyük zərbələr vurur, həm də bu ölkəni təcrid vəziyyətinə salmaqla onun sosial-iqtisadi vəziyyətini ağırlaşdırır.

Ermənistanda hərbi xuntanın hakimiyyətinə son verilməsi işğalçı ölkədə ötən ilin ən mühüm hadisəsi kimi tarixə yazıldı. Sarkisyan-Koçaryan koalisiyasından, onun yaratdığı xaosdan bezən xalq Ermənistanda hakimiyyətin devrilməsində fəal iştirak etdi. Baş nazir vəzifəsini ələ keçirən sabiq prezident Serj Sarkisyana qarşı kütləvi şəkildə çıxanlar onu devirə bildilər. 11 gün davam edən etiraz aksiyalarından sonra Serj Sarkisyan baş nazir vəzifəsindən istefa verməli oldu.

#### Xalq hərbi xuntanı devirdi

Hələ ötən il aprelin 17-də Serj Sarkisyanın parlamentdə baş nazir kimi təsdiq edilməsindən sonra etiraz aksiyalarına rəhbərlik edən Nikol Paşinyan bildirmişdi ki, minlərlə etirazçı Ermənistanda qeyri-zorakı məxməri inqilabı təşkil edir. Aprelin 23-də Ermənistanın baş naziri Serj Sarkisyan ölkəni iflic edən kütləvi etirazlarla istefa verməyə məcbur oldu.

"Vətəntaş müqaviləsi" partiyasına və "Mənim addımım" hərəkatına rəhbərlik edən Nikol Paşinyan ultimatum şəklində bəyan etdi ki, o, mütləq baş nazir olmalıdır. Əks təqdirdə, Paşinyan hakimiyyəti daha genişmiqyaslı etiraz aksiyaları ilə hədələdi. Baş verənlərə hakimiyyətin münasibəti isə onun özülünün nə qədər zəif olduğunu aydın şəkildə üzə çıxardı. Hakimiyyət Serj Sarkisyan başda olmaqla Paşinyana təslim oldu. Hərbi xuntanı devirmək istəyənlər məqsədlərinə nail oldular.

Bunun proqnozunu Prezident İlham Əliyev həmişə söyləyirdi. Dövlət başçısının böyük uzaqgörənliklə söylədiyi "Erməni xalqının ən böyük düşməni ona rəhbərlik edən hərbi xuntadır. Xalq onu zəlil gününə qoyan, dövləti dalana dirəyən cinayətkar rejimdən xilas olmalıdır" fikri Yerevanda artıq reallığa çevrildi.

#### İlham Əliyev Ermənistan rəhbərliyini "ofsayt"a salıb

Birmənalı həqiqətdir ki, Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu diplomatik fəaliyyət, çevik siyasət Ermənistanı, onun sabiq baş naziri Serj Sarkisyanı şahmat dili ilə desək, həmişə mat vəziyyətində qoyub. Prezident İlham Əliyevin siyasəti sayəsində Sarkisyan və onun hazırkı sələfi Paşinyan nə hadisələrin iştirakçısı ola bilir, nə də onlara təsir etmək imkanlarına malikdir. İşğalçı ölkədə açıq bəyan edilir ki, Azərbaycanın təzyiqləri, diplomatik gedişləri qarşısında keçmiş və hazırki iqtidar duruş gətirə bilmir və bu səbəbdən rəsmi Yerevanın məğlubiyyətlərinin sayı durmadan artır.

Elə indinin özündə də həyata keçirdiyi işğal siyasəti Ermənistanın regional təcridinin daha da dərinləşməsi ilə müşayiət edilməkdədir. Burada hakimiyyətdə kimin olmasından asılı olmayaraq, ölkənin düşdüyü təcrid vəziyyətindən xilas olmaq istiqamətində edilən cəhdlər birmənalı şəkildə iflasa uğrayır. Ötən zaman göstərir ki, Ermənistanın işğal siyasətinə son qoymaması və Azərbaycanın ərazi bütövlüyünü tanımadığı təqdirdə onun iflası qaçılmazdır. Çünki Ermənistanın təcriddən xilas olması yalnız Azərbaycandan asılıdır.

Ardı 2-ci səh.

**İlham ƏLİYEV:**

Ermənistanda çox ciddi dəyişikliklər baş vermişdir. İyirmi il ərzində hakimiyyəti qanunsuz olaraq zəbt etmiş kriminal xunta rejimi çökdü və bizim dediyimizi indi erməni xalqı deyir. Kriminal, rüşvətxor rejim 20 il ərzində öz xalqını istismar edirdi və bu rejimin acı sonu məntiqə tam uyğundur. Bizim ardıcıl, məqsədyönlü siyasətimiz kriminal xunta rejiminin çökməsində öz rolunu oynamışdır. Bizim siyasətimiz dəyişməz olaraq qalır. Nə vaxta qədər ki, bizim torpaqlarımız işğal altındadır, biz bütün imkanlardan istifadə edib Ermənistanı təcrid vəziyyətində saxlayacağıq və buna nail olduq. Bizim təşəbbüsümüzlə reallaşan qlobal enerji, nəqliyyat layihələri Ermənistandan yan keçir. Bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşanır, insanlar ölkəni kütləvi surətdə tərk edir, iqtisadi inkişaf üçün heç bir əsas yoxdur, xarici sərmayə qoyulmur, onların beynəlxalq bazarlara çıxışı çox çətinləşib.

## "Yeni əsrin müqaviləsi"ni "Mərkəzi Şərqi Azəri" layihəsi gerçəkləşdirəcək




"Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsinin əvvəlki tərəfdaşları ilə razılaşdırılmış şərtlər əsasında yeni müqavilənin imzalanmasından il yarım keçir. "Yeni əsrin müqaviləsi" adını almış bu sazişin gerçəkləşdirilməsi istiqamətində artıq müəyyən işlər görülüb və uğurlar əldə olunub. 2018-ci il yanvarın 29-da Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) yeni sazişə uyğun olaraq 450 milyon ABŞ dolları həcmində ilk bonus ödənişi həyata keçirilib.

2050-ci ilədək isə beynəlxalq tərəfdaşlar ARDNF-yə 3,6 milyard dollar bonus ödəyəcəklər. Bu müddətdə AÇG yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur.

"Yeni əsrin müqaviləsi"ni həyata keçirmək üçün "Mərkəzi Şərqi Azəri" (MŞA) layihəsi gerçəkləşdirilməyə başlayıb. Layihənin Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədləri hazırlanıb. Əvvəlki layihələrin ƏMSSTQ sənədlərində olduğu kimi, burada da Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Təhlükəsizlik və Ətraf Mühit (SƏTTƏM) siyasəti əsas götürülüb.

MŞA çərçivəsində hasilata başlamaq istiqamətində quruda və dənizdə genişmiqyaslı işlərin görülməsi planlaşdırılıb. Belə ki, AÇG müqavilə sahəsində daha bir hasilat, qazma və yaşayış platforması quraşdıracaq. O, Xəzərdə "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformaları arasında mərkəzi nöqtədə yerləşəcəyindən "Mərkəzi Şərqi Azəri" adlanacaq.

MŞA platformasından karbohidrogenlər "Dərinsulu Günəşli"nin neft və qaz ixracı borularına yataqdaxili xətlərlə köçürüləcək. Hasil edilən neft AÇG-nin digər platformalarında olduğu kimi, Səngəçal terminalına çatdırılacaq və burada ixrac üçün lazım olan səviyyədə emal ediləcək. Çıxarılan qazın bir hissəsi platformada yanacaq kimi istifadə olunacaq, qalanı yataqdaxili xətlərlə "Mərkəzi Azəri"yə, oradan AÇG-nin mövcud ixrac borularına ötürüləcək.

Xatırladaq ki, AÇG-dən hasilat İlkin Neft Layihəsi çərçivəsində "Çıraq" platformasından 1997-ci ilin noyabr ayında əldə olunub. Növbəti iki mərhələdə "Mərkəzi Azəri", "Qərbi Azəri " və "Şərqi Azəri" qurğuları istismara verilib. Üçüncü fazada "Dərinsulu Günəşli" işlənib. AÇG-də hələlik ən gənc platforma "Qərbi Çıraq"dır. Hazırda onun gündəlik orta hasilatı 57 min bareldir. Digər platformalar da ahəngdar işləyir və "Çıraq" gündə orta hesabla 47 min, "Mərkəzi Azəri" 156 min, "Qərbi Azəri" 126 min, "Şərqi Azəri" 97 min, "Dərinsulu Günəşli" 105 min barel neft verir.

"Mərkəzi Şərqi Azəri"dən gözlənilən hasilat isə belədir: gündə 100 min barelə qədər neft (lay suları ilə birlikdə) və 350 milyon standart kubfutadək qaz. Quraşdırma, öncə qazma quyularının platformaya birləşdirilməsi və işəsalma tədbirləri tamamlandıqdan sonra hasilata 2023-cü ildə başlanacağı gözlənilir.

Nəhayət, yeni platformanın üst modullarının və dayaq blokunun inşa edilməsi üçün potensial tikinti-quraşdırma meydançaları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu və Bibiheybətdəki "AMEK-Tekfen-Azfen" sahələridir. Qurudakı tikinti-quraşdırma meydançalarında inşaat və istismara hazırlıq işlərinin əksəriyyətinin 2019-cu ilin ortalarından 2022-ci ilin ortalarına qədər davam edəcəyi nəzərdə tutulur. Layihənin qiymətləndirilməsi nəticəsində belə qənaətə gəlinib ki, tikinti mərhələsinin ən qaynar çağı 2021-ci ilin əvvəlinə təsadüf edəcək. Bu zaman işçi qüvvəsinin təxminən 3700 nəfərə çatacağı gözlənilir. Həmişə olduğu kimi, bu layihədə də Bakının tikinti meydançalarına yaxın olan Səbail və Qaradağ rayonlarının sakinləri məşğulluq problemlərini həll etmək imkanı qazanacaqlar. Əvvəlki neft-qaz tikinti layihələrində çalışarkən bacarıq nümayiş etdirmiş və etimad qazanmış işçilərə üstünlük veriləcək.

***Flora SADIQLI, "Azərbaycan"***

## İbrahim KARAOSMANOĞLU: "Prezident İlham Əliyevin Türkiyədə "İlin dövlət başçısı" seçilməsi qürurverici hadisədir"

"Prezident İlham Əliyev Azərbaycanın siyasi, iqtisadi və digər sahələrdə inkişafında, Türkiyə ilə əlaqələrin daha da güclənməsində mühüm işlər görüb. Azərbaycan və Türkiyə prezidentləri iki qardaş olaraq bütün çətinlikləri birgə aradan qaldırırlar, nailiyyətlərə birlikdə imza atırlar. Prezident İlham Əliyevin Türkiyədə "İlin dövlət başçısı" seçilməsi bizim üçün qürurverici hadisədir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Kocaeli Böyükşəhər Bələdiyyəsinin və Türk Dünyası Bələdiyyələr Birliyinin sədri İbrahim Karaosmanoğlu bildirib.

Sədr qeyd edib ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin güclənməsi yerli özünüidarəetmə qurumlarımızın əməkdaşlığının inkişafına da imkan yaradıb. Türk Dünyası Bələdiyyələr Birliyi Azərbaycanla yanaşı, 26 ölkənin bələdiyyələri ilə birlikdə layihələr üzərində işləyir. Ancaq Türkiyə bu ölkələr arasında ən yaxın tərəfdaşı kimi Azərbaycanla daha vacib işlər görür. Hər iki ölkə bir-birinin təcrübəsindən istifadə edir. Məhz bunun nəticəsidir ki, bu gün Türkiyə və Azərbaycanın qardaşlaşmış bələdiyyələri var.

Kocaeli Böyükşəhər Bələdiyyəsinin sədri bildirib ki, qardaş ölkələrimiz hər zaman bir-birinin yanındadır. Türkiyə Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyini hər zaman dəstəkləyib və dəstəkləyəcək. Bu gün türk dünyası daha da güclənməlidir. Türk dünyası nə qədər güclü olarsa, Dağlıq Qarabağ münaqişəsi kimi məsələlər də öz həllini tez tapar. Bu gün Türkiyədə hər kəs ermənilərin Dağlıq Qarabağda törətdikləri barədə məlumatlıdır. Bu məsələdə bələdiyyələrin də rolu böyükdür. Türkiyənin müxtəlif bələdiyyələrinə məxsus ərazilərdə Xocalı və Qarabağ şəhidlərinə aid abidələr, parklar var.

# Komandanın diplomat gedişi

## İlham Əliyev Ermənistanı həm təcrid, həm də bütün imkanlardan məhrum edib

Əvvəli 1-ci səh.



Digər tərəfdən, region dövlətlərin və beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi də Ermənistanın işğalçılıq siyasətindən dünyada artan narazılığın real göstəricisidir. Belə vəziyyətdə aydındır ki, Ermənistan bütün diplomatik cəbhələrdə uduzmaqda davam edir.

Artıq birmənalı həqiqətdir ki, bu gün Ermənistanın bir dövlət olaraq varlığını davam etdirə bilməsi Azərbaycanla normal münasibətlərin qurulmasından, işğal siyasətindən əl çəkməsindən asılıdır. Əks təqdirdə, Ermənistanın indiki çöküşü davam edəcək, ölkə daha böyük sürətlə tənəzzül girdabına yuvarlanacaq.

Bunu əslində, bütün dünyada, o cümlədən Ermənistanın özündə də kifayət qədər aydın dərk edirlər. Bununla bağlı Ermənistanın "İravnuk" qəzeti yazır ki, Yerevan qonşu ölkələrin hamısı ilə münasibətlərini normallaşdırmasa, Dağlıq Qarabağ münaqişəsi həll edilməsə, hakimiyyətdə kimin olmasından asılı olmayaraq, ölkədə hansısa iqtisadi tərəqqidən danışmaq mümkün deyil.

Qəzet Nikol Paşinyanın hakimiyyətə gəlişi zamanı verdiyi vədlərin yerinə yetirilməsinin mümkünsüz olduğunu, əslində, cəmiyyətdə baş nazirə inamın sürətlə əriyib getdiyini də xüsusi olaraq diqqətə çatdırır.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan uzun müddətdir ki, işğalçı ölkəyə çox aydın şəkildə Ermənistanın xilasının Dağlıq Qarabağ münaqişəsinin həllindən keçdiyini açıq şəkildə bildirir. Beləliklə, Azərbaycan mövqeyini qəti şəkildə ortaya qoyur və bildirir ki, məsələnin sülh yolu ilə həlli üçün müvafiq addımlar atılmasa, onda hərb qaçılmaz olacaq.

### İşğala son qoyulmasa iflas qaçılmazdır

Hərb variantı işğalçı ölkə üçün daha böyük problemlər deməkdir və elə ötən il ərzində erməni tərəfi buna bilavasitə şahidlik etdi. Belə ki, dünyanın ən güclü 50 ordusu sırasında yer alan Azərbaycan Silahlı Qüvvələri 2018-ci ildə də döyüş meydanında uğurlu əməliyyatlar həyata keçirdi. May ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, İrəvan-Gorus-Laçın yolu nəzarətə götürüldü.

Bunun özü Ermənistanda kifayət qədər ciddi təşvişə yol açdı və elə indinin özündə də düşmən ölkədə ciddi rezonans yaratmaqda davam edir. Erməni ekspert David Şahnazaryan bu məsələyə toxunaraq bildirib ki, Azərbaycan Ermənistanla sərhəddə, Naxçıvan istiqamətində minlərlə hektar ərazini nəzarəti altına alıb: "Ən böyük təhlükə Qarabağı təhdid edir. Bu təhlükənin mənbəyi Azərbaycan, yaxud Türkiyə deyil, Ermənistanın hakimiyyətidir. Bu gün danışıqlar prosesində artıq geri dönməyən itkilərlə üz-üzəyik, Ermənistan-Azərbaycan sərhədində rəqib Naxçıvanda bir neçə min hektar ərazini nəzarəti altına alıb. Qoşunların təmas xəttində Azərbaycan hücum xarakterinə malik yeni hərbi qurğular tikir. 2019-cu il Qarabağın müdafiəsi baxımından hamımız üçün ağır olacaq".

Ermənistanın rəsmi şəxslərinin uzun müddət bu faktı inkar etmələri fonunda Şahnazaryanın sərhəddəki ərazilərin Azərbaycanın nəzarəti altına keçməsi haqqında bəyanatı diqqət çəkir. Nikol Paşinyan da bu yaxınlarda nəhayət, etiraf etmişdi ki, mövqelərin yerdəyişməsi baş verib. Bu xüsusda Paşinyan bildirmişdi: "Mən rəsmi olaraq bəyan edirəm ki, mayın 8-i tarixinə Ermənistanın nəzarəti altında olan torpaqlar bu cür olaraq qalır".

Lakin Avstraliyadakı Holokost və qətliamların öyrənilməsi institutunun analitiki Masis İngilisyanın məqaləsində peyk vasitəsilə çəkilmiş fotoşəkillərlə əyani olaraq nümayiş etdirilir ki, Azərbaycan Ordusunun neytral ərazilərdə hərəkəti həm yayda, həm də payızda davam etdirilib. İngilisyanın hələ noyabr ayında dərc edilmiş məqaləsində deyilirdi ki, Azərbaycanın ordu bölmələrinin yeni mövqelərdə möhkəmlənməsinin nəticəsində ermənilər bir neçə postu qoyub gediblər, digər postları isə bir müddət sonra boşaltmağa məcbur olublar. Ümumilikdə, 11 min hektara yaxın ərazi Azərbaycan tərəfdən nəzarət altına alınıb ki, bunun da 8 min hektardan çox hissəsi əkinçilik üçün yararlıdır.

### KTMT fiaskosu

Ötən il diqqət çəkən daha bir məqam isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Yuri Xaçaturovun tutduğu vəzifədən azad edilməsi oldu.

Ermənistanın iddialarına və istəklərinə baxmayaraq, təşkilatın baş katibi postu Ermənistandan alındı. Halbuki, işğalçı ölkə bu postu 2020-ci ilə qədər saxlamağa çalışırdı. Ermənistanda inqilab yolu ilə hakimiyyəti ələ alan Nikol Paşinyan bu məsələdə kifayət qədər arxayın bir mövqe sərgiləyirdi. Elə bunun nəticəsi idi ki, Paşinyan 2008-ci ilin martında Yerevanda prezident seçkilərinin nəticələrinə etiraz edən nümayişçilərə qarşı ordunun tətbiq edilməsi işindən yapışdı, birbirinin ardınca bu işdə əli olanlara, o cümlədən həmin dövrdə Yerevan qarnizounun komandanı olmuş KTMT baş katibi, Rusiyaya sıx bağlı olan general Yuri Xaçaturova cinayət işi qaldırılmasına getdi.

Paşinyanın hökuməti onun geri çağırılması və yerinə Ermənistanın başqa nümayəndəsinin göndərilməsi mexanizmini tapmağa çalışsa da, Xaçaturov ötən ilin noyabrında keçirilən Astana sammiti ərəfəsində özü istefa verdi. Baş nazir Nikol Paşinyan Astanaya yola düşməzdən əvvəl deyirdi ki, sammitdə Xaçaturovun istefasını baş katib postunun fors-major situasiyada boşalması ilə eyniləşdirəcək. Və israr edəcək ki, əsasnamədə bunun əksini göstərən heç bir müddəa olmadığından Ermənistan Xaçaturovun yerinə 2020-ci ilə qədər öz nümayəndəsini, indiki halda keçmiş müdafiə naziri Mikael Arutyunyanı göndərə bilər.

Bütün bunlardan sonra KTMT-yə üzv ölkələrin başçıları Astanaya toplaşdılar və əsas məsələ - blokun yeni baş katibinin seçilməsi barədə 3 saatdan çox bağlı qapılar arxasında müzakirə apardılar. Müzakirələrdən sonra Qazaxıstan Prezidenti Nursultan Nazarbayev elan etdi ki, bu məsələdə yekdil mövqeyə gəlmək mümkün olmayıb və dekabrın 6-da yenidən müzakirə aparılacaq. Amma Nazarbayev onu da elan etdi ki, daha Ermənistanın öz nümayəndəsini göndərmək şansı yoxdur, bloka rotasiya qaydasına uyğun olaraq Belarus nümayəndəsi başçılıq etməlidir.

Barəsində bəhs edilən tədbir həm də onunla yadda qaldı ki, Ermənistan tərəfinin bütün cəhdlərinə baxmayaraq, KTMT çərçivəsində müşahidəçi və tərəfdaş dövlətin hüquqi statusunu müəyyən edən sənədə imza atıldı. Belə vəziyyətdə maraq doğuran odur ki, qurum Azərbaycanı burada müşahidəçi qismində görməyi planlaşdırır. Bu da o deməkdir ki, faktiki olaraq Azərbaycanın regiondakı yerini, çəkisini, əhəmiyyətini nəzərə alaraq təşkilat öz nizamnaməsində dəyişiklik etdi. Beləliklə, Azərbaycan təşkilat yanında müşahidəçi dövlət statusunu qazanır. Bu, Azərbaycan üçün hazırlanmış bir sənəddir. Ermənistan rəhbərliyi isə bu fonda gördü ki, KTMT-də Azərbaycanın çox böyük nüfuzu var.

Bu da məlumdur ki, Azərbaycanın Ermənistanı çıxmaqla KTMT üzvləri ilə ikitərəfli formatda çox yaxşı münasibətləri, Belarus və Qazaxıstanla isə xüsusi münasibətləri var. Məhz bu münasibətlər sayəsində iki il əvvəl Ermənistanın KTMT baş katibi vəzifəsinə öz nümayəndəsini seçdirməsi xeyli müddət baş tutmamışdı. Astanada sammitdə baş verənlərdə Azərbaycan Prezidentinin Qazaxıstan və Belarus liderləri ilə xüsusi münasibətlərinin rolunu inkar etmək olmaz.

Ermənistanda da etiraf edirlər ki, Azərbaycan üzv olmasa da, KTMT-də çox güclü mövqeyə malikdir. Elə bunun nəticəsidir ki, Ermənistan mətbuatı və işğalçı ölkənin ekspert dairəsi indi də KTMT-nin Astana sammitində baş verənləri facia kimi dəyərləndirir. 1995-1998-ci illərdə KTMT-nin baş katibi olmuş Stepan Qriqoryan Astana sammitində baş verənləri ciddi böhran kimi səciyyələndirir. Onun qənaətinə görə, Ermənistan üçün ən ciddi təhlükə Belarusun KTMT-nin baş katibi postuna irəli sürdüyü namizədlə bağlıdır. Belə ki, Belarusun irəli sürdüyü namizəd hərbi akademiyanı Bakıda bitirib və Azərbaycanla sıx əlaqələri var.

Ermənistan müxalifətinin təmsilçisi, işğalçı ölkənin parlamentinin vitse-spikeri Eduard Şarmazanov isə bildirir ki, Ermənistanın təhlükəsizlik sahəsində öz mövqelərini itirməsi göz qabağındadır: "Baş katib postunun Belarusa keçəcəyinə artıq şübhə yoxdur və bu, Paşinyan hökumətinin növbəti iflasıdır".

Ekspertlərin fikrincə, Eduard Şarmazanovun Ermənistanın yeganə istinad nöqtəsi olan KTMT-də də iflasa uğramasının səbəblərini Paşinyan hökumətində axtarması təbiidir. Astana sammitində baş verənlərlə bağlı "Moskovskiy komsomolets" qəzetində dərc olunan analitik şərhdə maraqlı bir məqama toxunulub. Qəzet yazır ki, Ermənistanın planları Aleksandr Lukaşenkonun müqaviməti ilə toqquşub. Lukaşenko bildirib ki, əgər Ermənistan öz təmsilçisini baş katib postundan geri çağırıbsa, o zaman bu məsələ, ümumiyyətlə, müzakirə edilməməlidir və rotasiya prinsipinə uyğun olaraq KTMT-nin baş katibi Belarusun namizədi olmalıdır.

### Total saxtakarlıqla baş tutan parlament seçkiləri

Ermənistanda son parlament seçkilərinin nəticələri isə bu ölkənin iflasının qaçılmaz olduğunu bir daha sübut etdi. Ötən ilin dekabrında keçirilən növbədənkənar parlament seçkiləri də mahiyyət etibarı ilə əvvəlkilərdən fərqlənməyərək total şəkildə çoxsaylı qanun pozuntuları ilə yadda qaldı. Özü də bu o şəraitdə baş verdi ki, seçici fəallığı o qədər də yüksək olmadı. Səsvermə hüququna malik olan vətəndaşların 48,63 faizi seçkilərdə iştirak etdi.

Ermənistanda rəsmi rəqəmlərə əsasən, səsvermə hüququna malik vətəndaşların sayı 2 milyon 573 min 779 nəfərdir. Seçkiyə onların yarıdan çoxu, yəni, 51,37 faizi qatılmayıb.

Bir sözlə, seçkilər göstərdi ki, erməni xalqı idarəedici elitanın nə müxalif, nə də iqtidar kəsiminə etibar edir. Odur ki, seçici fəallığı həmişə olduğundan daha aşağı idi və küçələrə axışan kütlənin təzyiqilə oxlokratik rejim qurmuş Paşinyan xalqın böyük əksəriyyətinin etimadını qazana bilmədi.

Bununla belə, Ermənistanda baş nazirin vəzifəsini icra edən Nikol Paşinyanın alyansı parlament seçkisində qalib gəlib. Alyans səslərin 70 faizindən çoxunu yığaraq, Paşinyanın sözlərilə desək, ölkəyə "inqilabi çoxluğu" qazandırıb. Paşinyanın "Mənim addımım" alyansı səslərin 70,4 faizini qazanıb. Hakimiyyət çevrilişi zamanı Paşinyana dəstək verən oliqarx Hagik Tsarukyanın rəhbəri olduğu "Çiçəklənən Ermənistan" partiyası isə səslərin 8,3 faizini əldə edib.

Liberal, qərbyönümlü "İşıqlı Ermənistan" partiyası 6,4 faiz səslə üçüncü yeri tutub. Bu partiyaya Paşinyanın müttəfiqi Edmon Marukyan başçılıq edir.

Sabiq prezident Serj Sarkisyanın sədri olduğu "Respublika" partiyası isə səslərin cəmi 4,7 faizini yığıb ki, bu da parlamentə daxil olmaq üçün qoyulan 5 faizlik baryerdən azdır. "Daşnaktsütyun" partiyası 3,9 faiz səs toplayıb.

Mövcud qanunvericiliyə əsasən, parlamentdə minimum 3 partiya təmsil olunmalıdır. Eyni zamanda, heç bir partiya parlamentdə yerlərin üçdə-ikisini, yaxud 66 faizindən çoxunu əldə edə bilməz. Səslərin heç olmasa 33 faizi müxalifət partiyasına verilməlidir.

### Sosial-iqtisadi böhran dərinləşir

Sosial-iqtisadi sahədə böyük problemlər yaşayan Ermənistanda vəziyyətin getdikcə daha da pisləşməsi müşahidə olunur. Hakimiyyətin dəyişməsi ilə nəticələnmiş inqilab eyforiyası bitdikdən sonra Ermənistanda mövcud sosial-iqtisadi problemlər yenidən ön plana çıxıb. İndi cəmiyyət yeni hakimiyyətdən üzləşdikləri sosial çətinliklərin həllini tələb edir. Lakin məlum hakimiyyət dəyişikliyinə rəğmən, qeyd olunan istiqamətlər üzrə müsbətə doğru dəyişən nəsə yoxdur. Əksinə, düşmən ölkənin çöküşünün daha sürətli xarakter alacağı proqnozlaşdırılır. Bunu Ermənistanın cari il dövlət büdcəsindən də görmək olar.

Büdcənin gəlirləri 1,5 trilyon dram, xərcləri 1,6 trilyon dram göstərilir. Qeyd edək ki, 1 dollar 480 drama bərabərdir. Amma məsələ bundadır ki, bu fonda büdcədə sosial ödənişlərdə, maaşlarda hansısa artım yoxdur. Bununla bağlı ekspert Babken Tunyan qeyd edir ki, ölkədə "məxməri inqilab" da hansısa nailiyyətə nail olmadı. O bildirir ki, Ermənistanda təqaüd və maaşlar artmayacaq. Onun sözlərinə görə, bu gün ölkədəki pensiyaçıların təqaüdləri 100 dram artırılarsa, bu, dövlət büdcəsinə çox böyük məbləğə başa gələ bilər: "Təbii ki, belə bir addımın atılmasının ölkə əhalisinin rifahına elə də böyük bir təsir göstərməyəcəyini nəzərə alsaq, bu halda, belə bir sual doğa bilər: hökumət tərəfindən belə bir addım atılmasına dəyərmi? Əslində, pensiyaçıların təqaüdlərinin 1000 dram artırılması ölkədəki bugünkü qiymət artımı ilə müqayisədə heç nədir, yəni, belə bir addımın atılması xalqın rifah səviyyəsinin yüksəlməsinə heç bir təsir göstərə bilməz. Əslində, bu seçimi Nazirlər Kabineti etməlidir. Ermənistanda insanlar erkən seçkilərdən sonra "məxməri inqilab"ın iqtisadi təsirləri haqqında tez-tez danışmağa başlayıblar. Əgər doğrudan da, deyildiyi kimi, ölkədə vergi gəlirləri artırılacağı təqdirdə, pensiya və maaşların səviyyəsində artım olmayacaqsa, bunun əhali arasında hansı effekt verəcəyini də anlamaq lazımdır".

Bir daha xatırladaq ki, Ermənistan parlamentinin 2019-cu il üçün qəbul etdiyi dövlət büdcəsində respublikada minimum əməkhaqqı və əmək pensiyalarının eyni səviyyədə qalacağı bildirilib. Bununla yanaşı, əmək pensiyalarının hesablanmasında da heç bir dəyişiklik edilmir. Bu gün Ermənistanda pensiyaların miqdarı 16 min dram civarındadır.

Maraqlıdır ki, "Respublika" partiyasının mətbuat katibi Eduard Şarmazanov yeni hökumətin vergi artımı hesabına ölkədəki pensiya və maaşların artırılacağı barədə dediklərinin populizmdən başqa bir şey olmadığını bildirib. Ermənistanda sadəcə, bu ilin büdcəsində hərbi xərclərin artırılması nəzərdə tutulur ki, bunun da reallaşması böyük sual altındadır.

Qeyd edək ki, Ermənistan 2019-cu ildə hərbi büdcəsini 647 milyon dollara qədər artırmaq niyyətinə düşüb. İşğalçı ölkənin müdafiə büdcəsinin kəskin artımı ilk dəfə 2018-ci ildə olub. Həmin vaxt hərbi büdcə 2017-ci ildəkinə nisbətən 17,6 faiz artaraq 518 milyon dollar təşkil edib. Gələn il isə ermənilər bu göstəricini təxminən 647 milyon dollara çatdırmaq niyyətindədirlər.

Hərbi büdcənin bu cür artırılması ümumi daxili məhsulda hiss ediləcək şəkildə əks olunub. Belə ki, bu göstərici bu il 3,8 faizə yaxın olub, gələn il isə 4,5 faizə çatacaq. Hərbi büdcənin belə sürətli artımı əlbəttə ki, Ermənistan üçün ciddi çətinliklər yaradacaq. Bu rəqəmin ümumi daxili məhsulda nisbəti 5-6 faizdən çox olması ölkə iqtisadiyyatı üçün kifayət qədər ciddi təhlükədir. Amma bu artım Ermənistanın Azərbaycan ilə ayaqlaşa biləcəyi demək deyil. Əksinə, hərbi büdcənin belə artımı Ermənistan iqtisadiyyatının daha böyük problemlərlə üzləşməsi deməkdir. Digər tərəfdən isə hətta indiki artım nəzərə alınmaqla Ermənistanın hərbi büdcəsinin Azərbaycandakına çatmasına hələ çox var. Bu baxımdan, Ermənistanın hərbi büdcəsini artırması onun çöküşünü daha da sürətləndirəcək.

Ermənistan həmin vəsaitə ancaq sosial sahələrə ayrılan xərcləri azaltmaqla nail ola bilər. Əslində, artıq müəyyən azalmalar özünü göstərir. Məsələn, Ermənistan prezidenti Armen Sarkisyanın aparatı "Airbus" təyyarəsindən məhrum edilib, dövlət başçısının xərcləri 741 milyon dram və ya 1,5 milyon dollar azaldılıb. 2019-cu il üçün prezidentin xərcləri 1,183 milyard dram və ya 2,4 milyon dollar təşkil edəcək. Bu da 2018-ci ildəki analoji göstəricinin 61,5 faizini təşkil edir.

### Yoxsulluq, işsizlik və miqrasiya problemi

Erməni mediası yazır ki, indiki hakimiyyət komandasının fəaliyyəti nəticəsində Ermənistanın boşalması davam edəcək. Bunun əsas səbəbi kimi məhz Paşinyan iqtidarının yarıtmaz siyasəti, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasına görə təcrid vəziyyətinə düşmüş Ermənistanın inkişafdan geri qalması göstərilir. Bu durumda ölkədə əhalinin sayının ildən-ilə azalması elə bir həddə çatıb ki, daha nə vaxtsa artacağı barədə qorxa-qorxa danışırlar.

Ekspert Naira Zohrabyan bu xüsusda bildirir: "Əgər Ermənistanda real iqtisadi artım olsaydı, yüksək sürətli miqrasiya və vətəndaşlığı dəyişmək lazım gəlməzdi. Ermənistanın depopulyasiyası, yəni, əhalinin ölkəni tərk etməsi aşkar faktdır. İndi iş qabiliyyəti olan gənc insanlar Ermənistanı tərk edir, çünki onlar burada iş tapa bilmirlər. Rəsmi statistikaya görə, 30 faiz insan yoxsuldur, hərçənd bura işləyən, lakin aldığı maaşla yaşaya bilməyən təbəqə daxil edilmir. Bunu nəzərə alsaq, faiz dərəcəsi daha da böyüyəcək. Digər tərəfdən, maaşların azlığına, yüksək işsizliyə və alıcılıq qabiliyyətinin son dərəcədə aşağı olmasına baxmayaraq, qiymətlər durmadan artır və vətəndaşlar sadəcə olaraq heç nə ala bilmirlər. Beynəlxalq səviyyədə ərzağın qiyməti aşağı düşür, Ermənistanda isə artır. Bütün bunlar təbii olaraq miqrasiyaya təsir edir və insanlar öz ölkəsini tərk edir".

Rusiyanın Elmi Tədqiqatların Dəstəklənməsi Fondunun Ekspert Şurasının sədri Qriqori Trofimçuk isə qeyd edir ki, yaranmış durumda Ermənistanda xaos yüksələn xətt üzrə inkişaf edir: "İndiyə kimi Ermənistanın yeni baş naziri Nikol Paşinyana öz öhdəliklərini yerinə yetirməkdə heç kim mane olmurdu və o, bu müddətdə əsas sahələrdə həyat səviyyəsini yaxşılaşdıra, o cümlədən tariflərin endirilməsinə nail ola bilərdi. Ancaq bu, baş vermədi və parlamentin yeni tərkibi ilə də baş verə bilməzdi. Buna görə Ermənistanda xaos yüksələn xətt üzrə inkişaf edir. Bu, o deməkdir ki, Ermənistana sabitliyin qayıtması üçün uzun müddət lazımdır. Və burada kütlə istənilən anda Paşinyanı endirə bilər".

Bütün bunlar bir daha Ermənistanda gərgin vəziyyətin davam edəcəyini aydın nümayiş etdirir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması "Gate to Heaven" filminin prodüserlərinə etiraz məktubu ünvanlayıb

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması işğal olunmuş ərazilərimizdə çəkilən "Gate to Heaven" adlı filmin prodüserlərinə etiraz məktubu ünvanlayıb.

Bu barədə AZƏRTAC-a "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyindən məlumat verilib.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev məktubda bildirir:

"Mən sizə Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ bölgəsində "Cənnətə aparan yol" filminin çəkilişində iştirak etdiyinizə görə yazıram.

Bu filmi "Cəhənnəmə aparan yol" kimi adlandırmaq daha doğru olardı, çünki çəkilişin aparıldığı ərazilər güc tətbiqi nəticəsində işğal edilib və tarixən orada yaşayan yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından məcburi qovulub.

Siz yəqin ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın ərazilərinin, Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonun işğal edilməsindən xəbərdarsınız. Ermənistanın işğal olunmuş ərazilərdə azərbaycanlı əhalinin etnik təmizləməsini həyata keçirməsi nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Hazırda Dağlıq Qarabağın azərbaycanlı icmasının 80 mindən çox üzvü 30 ildən çox müddət ərzində Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün vəziyyətində yaşamağa məcbur olmuşdur. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı adlanan kiçik bir şəhərin azərbaycanlı əhalisinə qarşı Ermənistan silahlı qüvvələri tərəfindən törədilən qanlı faciəni, oxşarı olmayan qırğını xatırlatmaq kifayətdir. Bir gecə ərzində - 1992-ci il fevralın 26-da 613 nəfər xüsusi qəddarlıqla öldürülüb, onlardan 106-sı qadın, 63-ü uşaq və 70-i yaşlılar idi. Bu faciə Xocalı soyqırımı kimi tanınıb və bu soyqırımı barədə ətraflı məlumatları müxtəlif veb-səhifələrdən, o cümlədən http://www.karabakh.az/ səhifəsindən əldə etmək olar.

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi (1993-cü il) Dağlıq Qarabağ bölgəsini Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıyır və erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən təcili və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Bu tələb ATƏT, NATO, Qoşulmama Hərəkatı, Avropa Parlamenti, Avropa Şurası və digər beynəlxalq təşkilatların qətnamələri və qərarlarında təsdiqlənib.

Biz, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması, işğal olunmuş torpaqlarımızda film çəkilməsi təşəbbüsü ilə bağlı dərin təəssüf hissi keçirir, bu addımın artıq erməni hərbi işğalı nəticəsində dağıdılan bölgədə separatizmi və irredentizmi dəstəkləyəcəyini düşünürük. Utandırıcı haldır ki, sizin iştirak etdiyiniz layihə Ermənistanın hərbi təcavüzü nəticəsində məcburən öz torpaqlarından qovulmuş minlərlə azərbaycanlının əsas insan hüquqlarının (öz vətənlərində yaşamaq hüququ, mülkiyyət hüququ və s.) kobud şəkildə pozulmasına məhəl qoymur. Əslində, qeyd olunan filmin çəkilişində iştirak etməklə, siz Azərbaycan ərazilərinin işğalının möhkəmlənməsinə şüurlu şəkildə kömək etmiş olursunuz.

Biz münaqişənin tezliklə sülh yolu ilə həll olunması və azərbaycanlı icmanın Dağlıq Qarabağ bölgəsinə ən qısa zamanda qayıdışına inanaraq, sizi və bu təşəbbüsə qoşulan bütün şəxsləri Azərbaycan ərazilərinin işğalı, separatizmin dəstəklənməsi və təşviq edilməsini dayandırmağa çağırırıq. Əksinə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni icmasının azərbaycanlılarla birgəyaşayışına dair filmlərin çəkilməsi ideyası regionda sülh, sabitlik, tərəqqi və davamlı inkişafa töhfə verə bilər.

Biz Dağlıq Qarabağ ərazisində hazırda yaşayan insanların bu ərazilərdə baş vermiş ədalətsizliyi və qan töküldüyünü bildiyini və bəzilərinin buna şahid olmalarına rəğmən necə normal yaşadıqlarını həmişə sorğu edirik.

Sizi sülhü, ədaləti və inkişafı dəstəkləməyə və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmalarının əməkdaşlığı istiqamətində fəaliyyət aparmağa dəvət edirik".

## Atəşkəs rejimi 23 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Novruzlu, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Müdafiə naziri:*

# Azərbaycan Ordusunun döyüş qabiliyyəti ərazi bütövlüyümüzün təmin edilməsində əsas amillərdən biridir





Yanvarın 5-də Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də video-bağlantı vasitəsilə cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik və Yeni il münasibətilə xalqımıza təbrikini xatırladan müdafiə naziri bayram təbrikində ordumuza verilən qiyməti xüsusi vurğulayıb və şəxsi heyət qarşısında qoyulan konkret tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Müdafiə naziri qoşunların təmas xəttindəki hazırkı vəziyyəti təhlil edərək ötən il ərzində görülən işlər, qazanılan uğurlar və 2019-cu ildə yerinə yetiriləcək fəaliyyətlər barədə məlumat verib.

Azərbaycan Ordusunun bütün qoşun növlərinin və qisimlərinin fəaliyyətinə toxunan general-polkovnik Z.Həsənov müşavirə iştirakçılarından əsas diqqətin döyüş hazırlığı, qoşunların operativ, fasiləsiz və gizli idarə edilməsi, müdafiə sisteminin dayanıqlılığı, qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, komandir və rəis heyətinin peşəkarlığının daim artırılması, şəxsi heyətin təlim-tərbiyəsi, vətənpərvərlik və döyüş ruhunun möhkəmləndirilməsi, hərbi qulluqçuların sağlamlığı və döyüş təminatının digər aspektlərinə yönəldilməsini tələb edib.

Müdafiə naziri xüsusi vurğulayıb ki, dövlət başçısının da bildirdiyi kimi, ölkəmizin güclü hərbi potensialı və Azərbaycan Ordusunun döyüş qabiliyyəti ərazi bütövlüyümüzün təmin edilməsində əsas amillərdən biridir.

General-polkovnik Z.Həsənov bildirib ki, əldə edilmiş uğurlardan arxayınlaşmamalı, qoşunların taktiki, operativ və strateji səviyyələrdə fəaliyyətləri daim təkmilləşdirilməli, şəxsi heyət düşmən üzərində üstünlüyümüzü qorumaqla hər an döyüş əməliyyatlarına hazır olmalıdır.

# Uğurlu Horadiz əməliyyatından 25 il keçir

Azərbaycan Ordusunun 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə həyata keçirdiyi uğurlu Horadiz əməliyyatından 25 il ötür. Bu münasibətlə Horadiz şəhərindəki Heydər Əliyev Mərkəzində rayon ictimaiyyətinin, "N" saylı hərbi hissənin əsgərlərinin, Qarabağ müharibəsi veteranlarının, Horadiz əməliyyatında iştirak edən keçmiş döyüşçülərin iştirakı ilə mərasim keçirilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsinə ehtiramlarını bildiriblər.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Bağır Aslanov çıxış edərək Ermənistanın respublikamıza qarşı apardığı qəsbkarlıq müharibəsindən, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə ordu quruculuğu sahəsində görülən işlərdən, Horadiz əməliyyatının əhəmiyyətindən və Qarabağ müharibəsi tarixində xüsusi yerindən danışıb. Bildirib ki, 1994-cü il yanvarın əvvəllərində həyata keçirilən və Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Horadiz əməliyyatı nəticəsində qısa müddətdə 21 min hektar ərazi - Füzuli rayonunun 20 Arazboyu kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilib. Azərbaycan Ordusu bu uğura ulu öndər Heydər Əliyevin qətiyyəti, böyük sərkərdəlik məharəti, döyüş bölgəsinə gedərək hərbçilərdə güclü ruh yüksəkliyi yaratması nəticəsində nail olub.

Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Horadiz və işğaldan azad olunmuş digər yaşayış məntəqələrində infrastrukturun bərpasına başlanılıb. Ötən dövrdə təhsil, səhiyyə və mədəniyyət müəssisələri, yollar, körpülər, elektrik və suvarma sistemləri tikilib və bərpa olunub. Ərazidə məskunlaşmış əhalinin elektrik enerjisi, su, qaz, yol və başqa məişət qayğıları həll edilib. 2003-cü ildə prezident seçkiləri ərəfəsində "Azərbaycanda bir dənə də olsun çadır düşərgəsi qalmayacaq" deyən Prezident İlham Əliyevin sərəncamları ilə rayon ərazisində məcburi köçkünlər üçün 17 qəsəbə salınıb. Horadiz qəsəbəsinə şəhər statusu verilib, işğal nəticəsində dağıdılmış minlərlə ev bərpa edilib.

Tədbirdə çıxış edən Qarabağ müharibəsi veteranları Horadiz əməliyyatını hərb tariximizin ən parlaq səhifələrindən biri adlandırıb, işğal altında olan bütün torpaqlarımızın, o cümlədən Füzuli rayonunun digər ərazilərinin Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində düşmən tapdağından azad olunacağına əminliklərini ifadə ediblər.

**AZƏRTAC**



# Bataqlıqlar üzərində tikilən modern sənaye kompleksi

*Əvvəli 1-ci səh.*

Sənaye məhəllələri istehsal prosesinin təşkilində infrastruktur xərclərin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və s. məsələlərin həlli baxımından böyük əhəmiyyət kəsb edir.

Sənaye məhəlləsi üçün nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahəsi idarəedici təşkilatın daimi istifadəsinə verilir və yalnız sənaye məhəlləsinin fəaliyyəti məqsədi ilə istifadə edilir. Sənaye məhəlləsinin ərazisində torpaqlar sənaye məhəlləsinin iştirakçılarına sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair imzalanmış müqavilənin müddətinə uyğun olaraq icarəyə verilir.

Regionlarda yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsi, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, məşğulluqda sənayenin payının artırılması baxımından sənaye məhəllələrinin yaradılması xüsusi önəm kəsb edir.

## Şoran torpaq üzərində salınan sənaye məhəlləsi

Beş il öncə, 2014-cü il may ayının 28-ində - Respublika Günündə Neftçalaya səfər edən İlham Əliyev xüsusi göstəriş verərək bildirdi ki, kiçik və orta sahibkarlığın inkişafı üçün ərazi ayrılmalı və bütün infrastruktur layihələri dövlət tərəfindən icra olunmalıdır: "İctimaiyyət və rayon rəhbərliyi yer müəyyən etsin. Həmin ərazidə dövlət hesabına infrastruktur layihələri icra olunacaq. Bütün kommunikasiyalar çəkiləcək və sahibkarlara şərait yaradılacaq ki, onlar orada öz sənaye müəssisələrini qursunlar. Dövlət də öz tərəfindən maliyyə dəstəyini göstərəcək".

Dövlət başçısının göstərişindən sonra ərazi müəyyənləşdirildi və 2015-ci il fevral ayının 2-də Neftçala rayonunda Azərbaycanın ilk sənaye məhəlləsinin yaradılması haqqında sərəncam imzalandı. Sənaye məhəlləsinin inşası üçün 10 hektar torpaq sahəsi ayrıldı. İqtisadiyyat Nazirliyi tərəfindən aparılan tikinti işlərinə torpağın şoran və bataqlıq olması mane olurdu. Bu səbəbdən də torpağın istifadəyə yararlı vəziyyətə gətirilməsi üçün bir müddət drenaj, bərkidilmə-qurudulma işləri aparıldı və bundan sonra sürətli tikinti-quruculuq işlərinə başlanıldı. Tez bir zamanda burada böyük sənaye kompleksi yaradıldı və 2017-ci il sentyabr ayının 24-də Prezident İlham Əliyevin iştirakı ilə məhəllənin açılış mərasimi keçirildi.




| | |
|---|---|
| Yaradılıb - | 2 fevral 2015-ci il tarixli sərəncam; |
| Açılışı - | 24 sentyabr 2017-ci il; |
| Ərazisi - | 10 hektar; |
| Yatırılan investisiya - | 45,3 milyon manat; |
| İstehsal korpuslarının sayı - | 7; |
| İştirakçı müəssisələrin sayı - | 9; |
| İdarəedici təşkilatı - | "Azərbaycan İnvestisiya Şirkəti" |

## 45,3 milyon manat investisiya, 9 müəssisə

Artıq il yarımdır ki, Neftçala Sənaye Məhəlləsi fəaliyyətdədir. Bu qısa müddət ərzində məhəllədə fəaliyyət göstərən müəssisələrin istehsal etdikləri məhsullar "Made in Azerbaijan" brendi ilə həm daxili, həm də xarici bazarlarda satışa çıxarılır.

İlk sənaye məhəlləsində bu gün aqrar sektor üçün mühüm əhəmiyyət kəsb edən pivot suvarma sistemləri, təkrar emaldan hazırlanan taralar, polietilen suvarma boruları, kağız stəkanlar istehsalı, modul tipli məktəb binalarının quraşdırılması, balıq, toyuq, xırda və iribuynuzlu mal-qara yemi, plastik məmulatlar, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Sənaye məhəlləsinin iştirakçıları tərəfindən istehsal sahələrinin yaradılmasına 45,3 milyon manat investisiya yatırılıb. Məhəllədə ümumilikdə 500-ə yaxın iş yeri açılıb.

Məhəllədə sahibkarlar üçün yaradılan şərait və istehsal prosesi ilə yaxından tanış olmaq üçün Neftçalaya üz tutduq.

## Yüksək standartlara cavab verən 7 istehsal korpusu

Bir zamanlar bataqlıqlar içərisində olan ərazidə tikilən böyük sənaye kompleksi göz oxşayır. Məhəlləyə gedən yollar asfaltlanıb, ətrafına müxtəlif ağaclar əkilib və işıqlandırma sistemi ilə təchiz olunub.

Sənaye məhəlləsinin idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan İnvestisiya Şirkəti"dir. Şirkət tərəfindən burada 5 MVt gücündə transformator, 25 $m^3$/saat sutəmizləyici qurğu, 100 $m^3$/saat gücündə təbii qaz təchizatı yaradılıb, rabitə və nəqliyyat infrastrukturu sahibkarların istifadəsinə verilib, abadlıq işləri görülüb. Sənaye məhəlləsinin ərazisində yüksək standartlara cavab verən 7 istehsal korpusu (6922 $m^2$), inzibati bina (1200 $m^2$, 2 mərtəbə), texniki və köməkçi binalar (1000 $m^2$) tikilib.

Direktor Nəriman Xəlilov deyir ki, ümumiyyətlə, sənaye məhəlləsi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazidir. Sənaye məhəllələrinin üstünlüyü ondan ibarətdir ki, ilk növbədə, sahibkar öz müəssisəsi üçün infrastrukturun yaradılmasına pul xərcləmir. Yalnız icarə haqqı ödəyir. Sənaye məhəllələrinin ərazisində xarici və daxili infrastruktur (elektrik enerjisi və isitmə, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə obyektləri, inzibati obyektlər və s.) yaradılır. Sənaye məhəllələri dövlətin sənaye potensialının inkişaf zəncirində növbəti və möhkəm halqaya çevrilməklə ölkənin ixrac strukturunun qeyri-neft sektoru lehinə dəyişdirilməsinə ciddi şəkildə kömək edir.

## Ofis, sığorta, poçt, tibb məntəqəsi və kitabxana

İstehsal korpuslarından öncə inzibati bina ilə də tanış olduq. Bina toplantı və təlimlərin keçirilməsi üçün iclas otağından, müasir ofislərdən, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və sənaye məhəlləsinin idarəedici təşkilatının istifadəsi üçün nəzərdə tutulan sahələrdən ibarətdir. Burada sahibkarlara ümumi mühasibatlıq, hüquqi məsləhətlər, sığorta, kitabxana, "Startup"lar üçün ofis, yeməkxana və tibbi xidmətlər göstərilir. Sahibkarların fəaliyyətinə dəstək üçün Neftçala Sənaye Məhəlləsinin bütün ərazisi pulsuz internetlə təmin olunub.

Bir sözlə, regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsi, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, məşğulluğun və məşğulluqda sənayenin xüsusi çəkisinin artırılması baxımından Neftçala Sənaye Məhəlləsinin yaradılması böyük əhəmiyyət kəsb edir.

## 12 milyon ədəd banka konserv və 1000 ton soyudulmuş təzə balıq

Neftçala Sənaye Məhəlləsinin rezidentlərindən biri "Azproduct" MMC-dir. Müasir texnologiyaların tətbiq edildiyi, balıq emalı və konservləşdirilməsi sahəsində fəaliyyət göstərən müəssisədə ildə 12 milyon ədəd şərti banka (250 qr) konserv və 1000 ton soyudulmuş təzə balıq istehsal olunur.

2017-ci ilin oktyabrında istifadəyə verilən müəssisəyə 1,7 milyon manat investisiya qoyulub. Əlavə dövlət dəstəyi olaraq müəssisəyə İnvestisiya Təşviqi Sənədi təqdim edilib. Bu, müəssisənin təqribən 290 min manata qənaət etməsinə imkan verib. İstehsal sahəsində 40 nəfər işlə təmin edilib.

Balıq konservi istehsalının texnoloji prosesinə gəlincə isə müəssisənin təsisçisi Şamxal Məmmədov bildirdi ki, öncə xammal anbarlara yığılır. Müasir avadanlıqlar vasitəsi ilə balıqların buzları əridilir, təmizlənir və qablaşdırılır. Sonra isə buxarla nəmlik çıxarılır, souz əlavə edilir və qapaq bağlanır. Bu prosesdən sonra hazır məhsul sterilizasiya edilir, qab qurudulur, üzərinə etiket vurulur, termo paketləmədən keçir və hazır məhsul kimi anbara yığılır.

Soyudulmuş təzə balıq emalının texnoloji prosesi də maraqlıdır. Balıq qəbul olunduqdan sonra müasir avadanlıqlarda yuyulur və təmizlənir, qablaşdırılır və hazır məhsul kimi anbara ötürülür.

Təsisçinin sözlərinə görə, müəssisədəki avadanlıqlar Almaniya, Niderland, Norveç, Estoniya və Danimarkadan gətirilib.

## Dünyanın ən müasir suvarma sistemləri

Sənaye məhəlləsində balıq, toyuq və mal-qara yemi istehsalını həyata keçirən "Kəhf" Məhdud Məsuliyyətli Cəmiyyəti də fəaliyyətdədir. İllik istehsal gücü 25 min ton olan müəssisənin yaradılmasına 12 milyon manat investisiya yatırılıb. İllik dövriyyəsi 30 milyon manatdır.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına müəssisəyə 5,9 milyon manat məbləğində güzəştli kredit ayrılıb. Bundan başqa, müəssisəyə İnvestisiya Təşviqi Sənədi verilib ki, bu, sahibkara 1,2 milyon manat vəsaitə qənaət etmək imkanı yaradır. Müəssisədə 30 nəfərə yaxın şəxs işlə təmin edilib. Yem istehsalını həyata keçirən avadanlıqlar, yəni, müasir texnologiya Avstriya və Türkiyədən gətirilib.

Sənaye məhəlləsinin digər bir rezidenti "Gilan PİVOT" MMC-dir. Müəssisədə müasir texnologiyalar əsasında dairəvi suvarma - yəni, "Pivot" suvarma sistemləri istehsal olunur. Bu yeni texnologiya əkin sahələrinin suvarılma sisteminin daha da asanlaşdırılmasına xidmət edir. "Pivot" sistemləri dünyada ən müasir və ən səmərəli suvarma vasitəsidir. Bu sistem məhsuldarlığı bir neçə dəfə artırır. Artıq bu sistemdən Azərbaycanda təkcə pambıqçılıqda yox, başqa sahələrdə də istifadə olunur və demək olar ki, aqrar sektorda böyük dönüş yaradıb.

Ümumi investisiya dəyəri 1 milyon manat olan müəssisənin illik istehsal gücü 60-80 suvarma sistemidir.

## Kənd təsərrüfatı təyinatlı taralar, polietilen suvarma boruları

Məhəllədə plastik məmulatlar, o cümlədən kənd təsərrüfatı təyinatlı taralar istehsal edən "Metak" MMC-nin illik istehsal gücü 2 milyon taradır. Müəssisəyə 1,35 milyon manat investisiya qoyulub və İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 600 min manat güzəştli kredit verilib. Həmçinin İnvestisiya Təşviqi Sənədi də təqdim edilib ki, bu, müəssisənin təqribən 35 min manata qənaət etməsinə imkan verir. Müəssisənin məhsulları daxili bazarda, xüsusilə kənd təsərrüfatında qablaşdırmaya olan tələbatın ödənilməsində əhəmiyyətli rol oynayır.

Məhəllədəki "Toğrul-2008" MMC isə polietilen suvarma boruları istehsal edir. 100 min manat investisiya hesabına yaradılan müəssisənin illik istehsal gücü 360 tondur. Müəssisənin həm Neftçalada, həm də ətrafdakı yaxın rayonlarda tullantı polietilen məhsullarının qəbulu məntəqələri mövcuddur. Bu məntəqələrdə toplanan plastik tullantılar müəssisəyə gətirilərək yenidən xammala çevrilir və həmin xammaldan polietilen suvarma boruları hazırlanır. İstehsal edilən məhsul ətraf rayonlarda fermerlərin bu sahədə ehtiyaclarının ödənilməsinə yönəldilir.

## Modul tipli məktəb binaları

Modul tipli məktəb binalarının quraşdırılması ilə məşğul olan "Providence Limited" MMC də Neftçala Sənaye Məhəlləsinin rezidentlərindəndir.

80 min manat investisiya yönəldilən müəssisədə hazırda 15 nəfər çalışır. Modul tipli məktəblərin yaradılmasının üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır. Modul tipli məktəblərin digər üstünlüyü budur ki, qəzalı vəziyyətdə olan təhsil müəssisələrində təmir-tikinti işləri apararkən tədris prosesi dayandırılmır və müvəqqəti olaraq səyyar məktəb quraşdırılır.

2018-ci ildə 44 rayon əhatə olunmaqla, 100 azkomplektli və qəzalı vəziyyətdəki kənd məktəbi modul tipli məktəblərlə əvəz edilib. Modul tipli məktəblər Balakən, Sabirabad, Şəki, Quba, Qusar, Neftçala, Kürdəmir, Ağdaş, İsmayıllı, Tovuz, Göygöl, Tərtər ,Göyçay, Qəbələ, Oğuz və digər rayonlarda quraşdırılıb.

## Kağız stəkanlar içərisində quru çay və kofe

"Sun Rise Production" MMC-nin sənaye məhəlləsində yaratdığı müəssisədə isə kağız stəkanlar və hazır içkilər istehsal olunur. Yəni, kağız stəkanların içərisinə çay və kofe yerləşdirilir. Bu stəkanlara sadəcə olaraq qaynar su tökməklə içkini hazır vəziyyətə gətirmək olur.

Xammalı Türkiyədən alan müəssisənin istehsal sahəsinin yaradılmasına 619 min manat investisiya yönəldilib. Bundan başqa, müəssisəyə İnvestisiya Təşviqi Sənədi verilib ki, bu, təqribən 84 min manata qənaət etməyə imkan yaradır.

Fəaliyyətə başladığı 2017-ci ildə ayda 200 min ədəd kağız stəkan sifarişi alan müəssisədə indi yenilənmə prosesi gedir. Belə ki, kağız stəkanların həm formatı, həm də ölçüsü dəyişir. Beləliklə, daha maraqlı dizaynda və böyük ölçüdə stəkanlar istehsal ediləcək.

## Plastik tullantılar üçün metal konteynerlər

Burada fəaliyyət göstərən digər bir müəssisə isə "Petroqeoqaz" MMC-dir. Müəssisədə əsasən kənd təsərrüfatı avadanlığı və metal konstruksiyalar istehsal edilir. Bunların içərisində üzən su nasosları, "Pivot" suvarma sisteminin detalları - böyük və kiçik mala və ütü qoşquları, eləcə də plastik tullantılar üçün metal konteyner.

Müəssisənin rəhbəri Bayram Vəliyevin sözlərinə görə, plastik tullantılar üçün metal konteynerlər Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişləri əsasında hazırlanıb. 500 ədəddən çox sifariş artıq icra olunub. Belə ki, Neftçala, Salyan, Saatlı, Sabirabad, Hacıqabul, İmişli rayonlarından alınan sifarişlər əsasında da plastik tullantılar üçün metal konteynerlər hazırlanıb. Müəssisədə həmçinin küçə işıqlandırılması üçün metal dayaqlar istehsal olunur.

Sənaye məhəlləsində kiçik sahibkarlar üçün yaradılan emalatxanada isə müxtəlif məmulatlar hazırlanır. Burada kiçik sahibkarlar üçün hər cür şərait yaradılıb.

Azərbaycanın ilk sənaye məhəlləsini gəzib dolaşaraq burada sahibkarlar üçün yaradılan şəraitin şahidi olduq. Neftçalanın inkişafında çox böyük rolu olan bu sənaye məhəlləsinin fəaliyyəti həm rayon, həm də ölkə iqtisadiyyatına çox böyük təkan verir. Sənaye məhəlləsinin yaradılması əslində, bu istiqamətdə görülmüş işlərin yeni mərhələsinin başlanmasıdır. Ötən il Masallı Sənaye Məhəlləsi fəaliyyətə başlayıb, bu il isə Hacıqabul Sənaye Məhəlləsinin açılışı olacaq. Sabirabadda isə tikinti-quruculuq işləri gedir.

Bir sözlə, İlham Əliyevin vaxtilə verdiyi qərarlar artıq həyatda öz əksini tapır və ölkəmizdə modern sənayeləşmə istiqamətində aparılan siyasət uğurlu nəticələr verir.









***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Oxucu məktubları




### Qayğı

## Dövlət dəstəyi qol-qanad verir

Prezident İlham Əliyevin rayonumuza hər səfəri sakinlərə böyük sevinc bəxş edir. Dövlət başçısı belə səfərlər zamanı yeni obyektlərin açılışında iştirak edir, əhalinin həyat səviyyəsini yüksəltmək, gün-güzəranını daha da yaxşılaşdırmaq, sosial-iqtisadi inkişafını sürətləndirmək üçün sərəncamlar imzalayır.

Belə böyük qayğı və diqqətin nəticəsidir ki, əvvəlki illərdə rayonda xəstəxana, doğum evi, uşaq xəstəxanası, olimpiya idman kompleksi tikilib, 18 köçkün qəsəbəsi salınıb. Rayonumuzda elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Qazlaşdırmanın səviyyəsi 88 faizdir. İçməli su və suvarma suyu ilə bağlı problemləri həll etmək üçün çox iş görülüb.

Bu il noyabrın 5-dəki səfər də minnətdarlıqla xatırlanır. Həmin gün ölkə rəhbəri, birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzi və Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin, Qarabağ Atçılıq Kompleksinin açılışında iştirak etdilər.

Dövlət başçısı rayonumuzda əkin sahələrinin suvarma üsulu ilə təminatının yaxşılaşdırılması, əlavə tədbirlər haqqında və rayonun erməni silahlı birləşmələri ilə təmas xəttində yerləşən yaşayış məntəqələrində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncamlar da imzaladı. Birinci sərəncama əsasən rayonumuzda 35 subartezian quyusu qazılacaq. Onlardan biri bizim İmamqulubəyli kəndinin payına düşüb. Bununla xeyli ərazinin su təminatı daha yaxşı ödəniləcək.

Göstərilən qayğı camaatımıza qol-qanad verir, hər qarış torpaqdan səmərəli istifadə edib məhsul bolluğu yaratmağa ruhlandırır.

***Şükür MİRZƏYEV,***
***Ağdam rayonu***
***İmamqulubəyli kənd sakini***

### Abadlıq

## Fərq aradan qaldırıldı

Sumqayıtın abad küçələri, prospektləri, dənizkənarı bulvarı, göz oxşayan parkları, xiyabanları, milli üslubda tikilən binaları sakinlərə də xoş təsir bağışlayır, qonaqlara da. Bizim 10-cu mikrorayon da belədir. Buradakı bütün yaşayış binalarının zirzəmiləri təmizlənmiş, ərazidə abadlıq işləri aparılmışdır.

Əvvəllər 9 mərtəbəli binaların yuxarı mənzillərinə su yaxşı qalxmırdı. Xətlər dəyişdirildikdən sonra suyun axın tempi 1-ci mərtəbə ilə 9-cu mərtəbə arasında eynidir. Yuxarı mərtəbələrdəki mənzillərdə yaşayan sakinlərin bir giley-güzarı da liftlə bağlı idi. Artıq bu problem də həll olunub. Liftlər yeniləri ilə əvəz edilib.

***Elbəyi ABBASOV,***
***Sumqayıt***

### Minnətdarlıq

## Xatirələrdə izi qalıb



Oğlum Adil Tatarov keçən ilin may ayının 20-də Naxçıvan Muxtar Respublikasında düşmən təxribatının qarşısını alarkən həlak olub. Ailəmizə ağır itki üz verdiyi həmin günlərdə qohum-əqrəba, tanış-biliş, rayon rəhbərliyi daim yanımızda olub, kədərimizə şərik çıxdılar.

Bir müddət sonra rayonda Adilin doğum günü geniş qeyd olundu. Xatirəsinə həsr olunmuş idmanın karate-do növü üzrə rayon birinciliyi keçirildi. Vaxtilə təhsil aldığı Qıraq Kəsəmən kənd orta məktəbinin idman zalında keçirilən yarışda Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan ordu quruculuğundan danışdı. Oğlumun, eləcə də onun kimi yüzlərlə şəhidin qəlblərdə daim yaşayacağını söylədi.

Digər çıxış edənlər şəhid Adil Tatarovun idmanın karate-do növündə qazandığı uğurlardan söhbət açdılar. Turnirdə Ağstafa ilə yanaşı, Bakı, Gəncə şəhərlərinin, Göygöl, Şəmkir, Tovuz və Qazax rayonlarının idmançıları da mübarizə apardılar. Maraqlı keçən yarışda Gəncə idmançıları 1-ci, Ağstafa idmançıları 2-ci, Qazax idmançıları 3-cü yeri tutdular. Qaliblərə medallar və diplomlar təqdim olundu.

Hörmətli redaksiya!

Dediyim odur ki, bizim ailə də digər şəhid ailələri kimi, dövlət tərəfindən hər cür diqqət və qayğıyla əhatə olunmuşdur. Belə qayğıya görə ölkə rəhbərinə, oğlumun xatirəsini əziz tutanlara ailəmiz adından minnətdarlığımı bildirirəm.

***Əli TATAROV,***
***Ağstafa***

### Qədim sənəti yaşadanlar

## 85 yaşlı fədai



Monidigah kəndi üç məhəllədən ibarətdir: Pendi, Sindi və Monidiqo. Hər məhəllənin də tanınmış sənətkarları var: dəmirçi, xarrat, dülgər, bənna, xalça, kilim və cecim ustaları.

Burada diyarın folklorunu, adət-ənənələrini yaşadan ağsaqqallar və ağbirçəklər az deyil. Belə ağsaqqallardan biri talış rəqslərinin mahir bilicisi Abidin Əliyevdir.

O, dəmirçi ailəsində boya-başa çatıb. Gənclik illərindən incəsənətin vurğunu olub. Rəqqas peşəsini seçib. 1958-ci ildə gənclərin və tələbələrin birinci festivalında "Lakto" talış rəqsinin ifasına görə ikinci dərəcəli diploma layiq görülüb. Orta məktəbi bitirdikdən sonra Bakı Kitabxanaçılıq Texnikumunun mədəni-maarif şöbəsində təhsil alıb. Əmək fəaliyyətinə kənddəki mədəniyyət evində bədii rəhbər kimi başlayıb. Sonralar direktor təyin edilib. Mədəniyyət ocağına rəhbərlik etdiyi illərdə kəndbəkənd gəzib, mahnılar toplayıb, rəqslər öyrənib. Ötən əsrin 70-ci illərində "Lakto" adlı folklor rəqs qrupu yaradıb. İllər ötüb, rəqs qrupu zona baxış müsabiqələrində dəfələrlə birinci yeri tutub, respublika turundan diplomlarla qayıdıb. Ölkəmizin paytaxtında, şəhər və rayonlarda keçirilən tədbirlərdə maraqlı çıxışlarla tamaşaçıların rəğbətini qazanıb.

İncəsənət fədaisi Abidin Əliyevin əməyi dövlət tərəfindən də yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülüb. Bir neçə il bundan əvvəl təqaüdə çıxsa da, rayon Mədəniyyət Mərkəzi ilə əlaqəsini kəsməyib. Onun təşəbbüsü ilə bu mərkəzdə "Rəfti" folklor rəqs qrupu yaradılıb. Qrupa Lerikin kəndlərindən 8 nəfər ağsaqqal cəlb edilib. 85 yaşlı Abidin Əliyevin iştirak etdiyi rəqs qrupu Bakıda keçirilən bayram tədbirlərində, Türkiyə Cümhuriyyətinin Hatay vilayətində, Dağıstanda, Orta Asiya respublikalarında maraqlı proqramla çıxış etmişdir. "Lakto", "Səbəti", "Neynim-neynim", "Papaqtutdu" rəqsləri tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

***Ruslan İSMAYILOĞLU,***
***Lerik rayon sakini***

### Quruculuq

## Müraciətimiz cavabsız qalmadı

Bilirik ki, ölkə rəhbəri əhalinin məşğulluğunun və rahat yaşamasının təmin olunması, mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün çox böyük işlər görür, bununla bağlı vəsait ayırır. Məhz bu diqqət və qayğı sayəsində Qazax rayonunda da bu iş intensiv şəkildə həyata keçirilir.

Keçən il dövlət başçısının müvafiq sərəncamı ilə ayrılmış vəsait hesabına 78 çoxmənzilli yaşayış binası əsaslı şəkildə təmir olunmuşdur. Bu il isə 47 binada təmir işlərinin aparılması planlaşdırılmışdı. Artıq onların da hamısında işlər başa çatdırılmışdır.

Hörmətli redaksiya!

Qazax şəhərinin Ə.Şıxlinski küçəsindəki 4 və 5 nömrəli binalar 1986-cı ildə istifadəyə verilmişdir. O vaxtdan bu binalar heç vaxt əsaslı təmir olunmamışdı. Bununla bağlı rayon icra hakimiyyətinə müraciət etdik. Müraciətimiz cavabsız qalmadı. Çox çəkmədən mütəxəssislər gəlib binaya baxış keçirib layihə tərtib etdilər. Cəmi 3 ay ərzində hər iki binanın dam örtüyü dəyişdirildi, fasadları, blokları, pilləkənlər təmir olundu. Elektrik, rabitə xətləri qaydaya salındı. İndi bu binalar da göz oxşayır.

***Nailə ƏLİYEVA,***
***Qazax rayon sakini***

### İstək

## Davamı olsun



Hər gün Bakı-Rostov magistralı ilə minlərlə maşın hərəkət edir. Peşəmlə əlaqədar mən də bu yolla tez-tez gedib-gəlirəm.

Bir neçə il əvvəl yolun Siyəzən və Şabran ərazilərindən keçən hissəsinin hər iki tərəfində yaşıllıqlar salındı. Yaxşı qulluq sayəsində ağaclar böyüyüb boy atdı. İndi bu yerlər göz oxşayır.

İsti havalarda həmin ağacların kölgəsində istirahət edən turistlərə də rast gəlmək mümkündür. Kaş bu işin davamı olaydı. Belədə sürücülər də, uzaq məsafəyə gedib-gələnlər də yol yorğunluğunun nə olduğunu bilməzlər.

***Elman MƏMMƏDOV,***
***Şabran***

## "İsma Bikes"in istehsalı da artır, alıcıları da...














Bu velosipedlər Azərbaycan məhsuludur. Həm də onları istehsal edən zavod paytaxtda, yaxud ölkənin hansısa iri şəhərində və ya rayon mərkəzində deyil, kənddə yerləşir. Bura İsmayıllı rayonunun mərkəzindən 6 kilometrlik məsafədə yerləşən Diyallı kəndidir. Bu faktın özü də Azərbaycanda regionların sosial-iqtisadi inkişafına, iqtisadiyyatımızın şaxələndirilməsinə aydın misaldır.

"İsma Bikes" adlanan müəssisə Bolqarıstanın Sofiya Velosiped Zavodu ilə əməkdaşlıq çərçivəsində layihələndirilib. 2016-cı ildən fəaliyyətə başlayan "İsma Bikes"in açılış mərasimi Prezident İlham Əliyevin iştirakı ilə keçirilib. Zavodda əvvəlcə müxtəlif növlü velosipedlərin, daha sonra isə əlil arabalarının da istehsalı nəzərdə tutulub.

İstehsal getdikcə artır. "İsma Bikes"də buraxılan eyniadlı məhsul bazarda yeni olsa da, artıq özünə çoxsaylı alıcılar tapıb. Çünki ölkənin əksər bölgələrində velosipedə maraq göstərənlərin sayı sürətlə artır. Bu isə getdikcə velosiped idmanının daha da inkişaf edəcəyindən xəbər verir. Zavodun gələcək fəaliyyəti də bu tələbatı ödəməyə hesablanıb.

*Foto Ağaəli MƏMMƏDOVUNDUR*

### İsrafçılıq

## Belə dəb olar?

Zaman keçdikcə adət-ənənələrin bəziləri sıradan çıxır, yeniləri yaranır. Bu, təbiidir. Son illər toydan bir gün əvvəl "ciyər axşamları" keçirmək yaman dəbə düşüb.

Onun harada, nə vaxt yarandığını deyə bilmərəm. Amma deyirlər ki, ona az qala bir toyun yarısı qədər, bəlkə də daha çox xərc çəkilir. "Ciyər axşamları"nda yeyib-içənlər ertəsi gün toy məclislərində də iştirak edirlər. Bəzən belə axşamlarda cavanlar yeyib-içəndən sonra oturub səhərin gözü açılana kimi müxtəlif oyunlar oynayırlar. Elə hallar da olur ki, özünü idarə edə bilməyən gənclər davadalaş salır, hadisə törədir, araya qanıqaralıq düşür. Ən çox maddi ziyan çəkən də toy sahibi olur, mənəvi əzab çəkən də!

Bəs bu dəbi aradan qaldırmaq üçün nə etmək lazımdır? Sadəcə "qonşudan qalma dala" prinsipindən əl çəkib "ciyər axşamları" keçirməkdən imtina etmək! Bu həm israfçılığın qarşısını alar, həm də xoşagəlməz hadisələrin. Fikrimizcə, bu işdə nüfuzlu adamlar, ziyalılar, ağsaqqallar qabağa düşsələr, məsələ daha tez həllini tapar.

***Fəqan İBRAHİMOV,***
***Bərdə şəhər sakini***

### Yenilik

## Təzə ili təzə məktəbdə

Uca dağlar qoynunda yerləşən Quba rayonunun Çarxaçu kəndi təbii gözəllikləri ilə göz oxşayır. Sakinləri qayğıkeş və qonaqpərvərdirlər.



Bunu ona görə deyirəm ki, Bakıda doğulub boya-başa çatmışam. Üç ildir ki, bu kənd məktəbində tarix fənnini tədris edirəm. Lakin işlədiyim məktəb köhnə binada yerləşir. Əsas çətinliyimiz soyuq, xüsusilə qarlı-şaxtalı günlərdə olur. İstədiyimiz kimi fənləri tədris edə bilmirik.

Ölkə rəhbərinin tapşırığı ilə indi burada təzə məktəb tikilir. İşin gedişi ilə müəllimlərlə yanaşı, kənd sakinləri də yaxından maraqlanırlar.

Bina müasir işıqlandırma və istilik sistemi ilə təmin ediləcək, ətrafına istinad divarları, üstündən də dəmir tor çəkiləcək. Tezliklə yeni məktəbimizə köçəcəyik. Yəqin ki, şərait yaxşılaşdığına görə bu məktəbdə işləmək istəyənlərin sayı da artacaq.

***Zülfiyyə HƏSƏNOVA,***
***Quba rayonu***

### Peşə məktəbi

## Dünyanın ən yaxşıları sırasında

Lənkəran Uşaq Rəssamlıq Məktəbi 35 ildir ki, fəaliyyət göstəir. Hazırda burada Lənkəran, Lerik, Masallı və Astara rayonlarından olan 60-dan çox şagird təhsil alır. Onlara rəngkarlıq, qrafika, heykəltəraşlıq, dekorativ təsviri sənət, moda rəssamlığı, dizayn və digər ixtisaslar öyrədilir.





Məktəbin direktoru, tanınmış rəssam Adil Əsədli deyir ki, 2018-ci il onlar üçün çox uğurlu olub. Yaponiya, Polşa, Hindistan, Yunanıstan, Misir və digər ölkələrdə keçirilən sənət yarışmalarında nailiyyətlər qazanan bu təhsil ocağı dünya miqyasında tanınan 100 uşaq rəssamlıq məktəbi arasında layiqli yer tutub.

Misir səfirliyinin dəvəti ilə beynəlxalq sərgiyə qatılan məktəbin şagirdi Şəhriyar Rzazadə ikinci dərəcəli diplomla təltif olunub, Zümrüd Abbaszadənin rəsm əsərləri Yunanıstanda keçirilən rəsm müsabiqəsində üçüncü yerə layiq görülüb. Beş yaşından rəssamlığa həvəs göstərən 15 yaşlı Zümrüd bir neçə janrda şəkillər çəkir, daha çox rəngli boya ilə kətan üzərində işləməyə üstünlük verir.

Belə misalların sayını artırmaq da olar. Əsası odur ki, bölgədə rəssamlığa həvəs göstərən istedadlı uşaqlar diqqətdən kənarda qalmır, belələrini üzə çıxarmaq üçün hərtərəfli şərait yaradılır.

***Ağaddin BABAYEV,***
***Lənkəran şəhər sakini***

Talelər

# Sibiri Sibir edən Azərbaycanlı



Bu yaxınlarda Sibirdə, Qornopravdinsk qəsəbəsində neftçi Fərman Salmanovun bürünc heykəli ucaldılıb. Bu, Rusiya torpağında Azərbaycan oğlunun xatirəsini əbədiləşdirən ilk abidə deyil. Fərman Salmanovun Surqutda və Xantı-Mansiskdə də heykəlləri, Moskvada büstləri var.

...Dağlar öz yüksəkliyində və əzəmətində qalır - bizdən uzaqda da olsalar, yaxında da. Böyük nur çeşmələrinin işığı təkcə öz ətrafına deyil, uzaq məsafələrdəki yollara-rizlərə də düşür. Xalqına şan-şöhrət gətirən oğullar isə elinin-obasının fəxrinə, qüruruna çevrilir - vətəndə də olsalar, ondan xeyli uzaqlarda da...

Gənc yaşlarından Azərbaycandan uzaqlarda yaşayan, Sibirdə, qədim Yuqra diyarında əsl xariqələr yaradan Fərman Salmanov xalqımıza həmişə başucalığı gətirib. 12 il əvvəl dünyasını dəyişsə də, dərin qatlarının "qara qızıl" sərvətini üzə çıxardığı Sibir torpağında əfsanələşən, daim yadda qalan və əməlləri yaşayan bir obraza çevrilib.

Kim idi Fərman Salmanov? Sibir neftini kəşf edən məşhur geoloq. Yaşadığı dövrün ən yüksək mükafatlarına - Sosialist Əməyi Qəhrəmanı fəxri adına, Lenin mükafatına layiq görülmüşdü. Geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsini isti iş otağı və rahat laboratoriyalarda deyil, şaxtası insanın iliyinə işləyən Sibir çöllərində, qarla örtülmüş vadilərdə, buz bağlamış okean sahillərində neft yataqlarını kəşf edə-edə qazanmışdı. Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilmişdi. Rusiya Federasiyasının əməkdar geoloqu adını almışdı.

Fərman Salmanov şöhrətin bu zirvəsinə çatanadək keşməkeşli yollardan adlamışdı. Qəribədir ki, Fərmanın ağlı kəsməyə başlayanda Şəmkirin Morul kəndində babası Süleyman kişidən eşitdiyi ilk nağıl Sibir haqqında olmuşdu. Əslində bu, acı bir həyat hekayəti idi. Belə ki, Süleyman kişi hələ gənc ikən, 1888-ci ildə dini vergiləri ödəməkdən boyun qaçırdığı üçün 20 il müddətinə Sibirə sürgün edilmişdi. Lakin Rusiya-Yaponiya müharibəsində igidlik göstərməsi Süleymanı xilas etmiş və o, evləndiyi rus qızı Olqanı da götürüb vətənə gəlmişdi. Olqa dilimizi öyrənmiş, dinimizi qəbul etmiş və artıq Firuzə kimi kənddə-kəsəkdə hamı ilə doğmalaşmışdı. Balaca Fərman nənəsindən az da olsa, rus dilini öyrənə bilmişdi. Odur ki, SSRİ neft sənayesi naziri Nikolay Baybakov Şəmkirdə səfərdə olarkən hörmətli qonağı məktəblilər adından salamlamaq Fərmana həvalə edilmişdi. Görüş zamanı Baybakov Fərmandan soruşmuşdu ki, böyüyəndə nəçi olmaq istəyir. O isə dərhal "neftçi olacağam" demişdi. Uşağın başını sığallayan Baybakov sanki bu yolda ona xeyir-dua vermişdi.

İllər keçdikcə yeniyetmə Fərmanın təxəyyülündə "Sibir" və "neft" məfhumları birləşərək onu uzaq yollara, böyük məqsədlərə səsləyir.

1954-cü ildə Azərbaycan Sənaye İnstitutunu (indi Azərbaycan Neft və Sənaye Universiteti) bitirən gənc mühəndis-geoloq Moskvaya məktub göndərərək N.Baybakovdan xahiş edir ki, onun Sibirdə işləməsinə imkan yaradılsın. Fərmanı Moskvaya çağırır, hətta yol pulunu da verib Kuzbasa göndərirlər. Beləliklə, bir zamanlar Sibirdə günahsız cəza çəkməyə məhkum edilən kişinin nəvəsi indi buraya xoş əhvali-ruhiyyə ilə, xeyirxah missiya ilə qədəm qoyur.

Lakin iki-üç il Kemerovo və Novosibirsk vilayətlərində aparılan neft axtarışları heç bir nəticə vermir. Odur ki, 1957-ci ilin avqust ayında Fərman Salmanov yuxarı instansiyalara müraciət etmədən və heç kəsdən icazə istəmədən öz geoloqlar dəstəsi ilə Surquta yollanır və orada qazma işlərinə başlayır. Bu hərəkətinə görə onu işdən çıxarmaq və həbs etmək istəyirlər. Daxilindən gələn bir səs isə Fərmana "geriyə çəkilmə!" deyirdi. O, bütün təzyiqlərə dözüb ərazini tərk etmirdi. Nəhayət, müdiriyyət "yuxarılar"ın razılığını alıb köhnə tarixlə əmr imzalayır və Salmanovun Surquta getməsini rəsmiləşdirir.

1961-ci ilin yazında çox sevdiyi Novruz bayramı Fərmana xoş müjdə gətirir. Mart ayının 21-də Megion kəndi ərazisində qazılan ilk quyu 2180 metr dərinlikdən fontan vurur. Lakin bu quyunun ehtiyatlarının cüzi olduğunu söyləyərək Salmanovun qələbəsinə əhəmiyyət vermirlər. Çox keçmədən Ust-Balıq rayonunda ikinci quyu fontan vurur. Salmanov müdiriyyətə radioqramla xəbər verir: "Burada neft aşıb-daşır". Bununla kifayətlənməyib SSRİ-nin o vaxtkı rəhbəri Nikita Xruşşova ötkəm məzmunlu belə bir teleqram da göndərir: "Mən nefti tapdım! Bax, belə! Salmanov".

Fərman Salmanovun gələcək karyerası çox uğurlu oldu. O, Qərbi Sibirdə neft və qazla bağlı ən böyük müəssisələrə rəhbərlik etdi. Tarixdə isə "Mamont", "Megion", "Pravdinsk", "Urenqoy", "Yamburq" kimi nəhəng karbohidrogen yataqlarını kəşf etmiş geoloq kimi qaldı. "Müəllif"i azərbaycanlı Salmanov olan bu cür yataqların sayı 130-dan çoxdur.

Vaxtilə insan ayağı dəyməyən yerlərdə indi Qornopravdinsk kimi abad bir qəsəbənin olması da Fərman Salmanovun adı ilə bağlıdır. Sözügedən ərazidə Salmanov neft kəşf edəndən sonra burada insan məskən salmışdır. Məhz buna görə də bir-iki il əvvəl qərara alınmışdı ki, qəsəbənin mərkəzində onun xatirəsinə abidə kompleksi yaradılsın. Kompleksin müəllifi heykəltəraş Aleksandr Rukovişnikovdur. Bu, həmin heykəltəraşdır ki, indiyədək böyük yazıçılar Fyodor Dostoyevski və Nikolay Şoloxov, məşhur şair-aktyor Vladimir Vısotskinin heykəllərini yaratmışdır.

Fərman Salmanovun ən böyük abidəsi isə insanların qəlbində ucalıb. "Fərman sanki bu gün də Yuqra diyarı ilə addımlayır. Onun insanlara bəxş etdiyi entuziazmı bu yerlərin sakinləri nəsildən-nəslə ötürürlər". Bu, kompleksin açılış mərasimində xüsusi qeyd edilib. Bir daha vurğulanıb ki, Sibiri Sibir edən Fərman Salmanov olub. Salmanovun kəşf etdiyi yataqların hasilatı hələ də tükənməyib və onlar Rusiyanın hazırkı neft-qaz kompleksinin bazasını təşkil edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***




# Planet yeni sürətlə silahlanmanın astanasında

*Təhlükəli vəziyyətin yaranmasında ABŞ və Rusiya bir-birini günahlandırır*

Dünyada cərəyan edən təhlükəli proseslər bir-birini izləyir. Artıq qlobal ticarət müharibəsi faktdır. İqlim dəyişikliyi bəşəriyyətin gələcəyi üçün real təhdiddir. ABŞ-ın İranın nüvə proqramına dair beynəlxalq sazişdən çıxması da dünyanın bir çox ölkələri arasında qarşıdurma yaradır.

ABŞ-ın ortamənzilli (1000 kilometrdən 5500 kilometrədək) və yaxınmənzilli (500 kilometrdən 1000 kilometrədək) raketlər haqqında müqavilədən (OYRM) çıxacağını bəyan etməsi qlobal miqyasda başqa bir təhlükəli vəziyyətin - sürətlə silahlanmanın qayıdacağından xəbər verir. Müvafiq bəyanatla ötən il oktyabrın 20-də Amerika lideri Donald Tramp çıxış etmişdir.

OYRM 1987-ci il dekabrın 8-də keçmiş SSRİ ilə ABŞ arasında imzalanmış və 1988-ci il iyunun 1-də qüvvəyə minmişdir. O vaxtdan bəri hər iki tərəf sözügedən raketləri ləğv etmişdir. Lakin son illər ABŞ Rusiyanı müqaviləni pozmaqda ittiham edir. Vaşinqtonun fikrincə, Rusiyanın sınaqdan çıxardığı 9M729 raketi OYRM-in pozulması deməkdir. ABŞ-ı dəstəkləyən Böyük Britaniya istisna olmaqla, Avropa ölkələrinin liderləri müqaviləni qüvvədə saxlamağı zəruri sayırdılar.

Öz növbəsində Rusiya ABŞ-ın iddialarını rədd edərək bəyan edirdi ki, 9M729 raketi OYRM-i pozmur, çünki raket 2017-ci ilin sentyabrında sınaqdan çıxarılarkən 480 kilometrdən az uçmuşdur. Digər tərəfdən, ABŞ Rumıniya və Polşada "Tomahavk" tipli qanadlı raketlər buraxmağa qadir olan MK41 qurğuları yerləşdirir ki, bu da müqavilənin şərtlərinə ziddir.

Ötən ayın 4-5-də NATO-nun üzvü olan ölkələrin xarici işlər nazirlərinin Brüsseldə keçirilmiş görüşündə ABŞ-ın dövlət katibi Maykl Pompeo bildirmişdir ki, Rusiya 60 gün ərzində OYRM üzrə öhdəliklərinin icrasına başlamasa, ABŞ müqavilədən çıxacaq. Görüş zamanı Şimali Atlantika alyansının iştirakçıları Vaşinqtona birmənalı dəstək verdilər. Xarici işlər nazirlərinin qəbul etdiyi bəyannamədə vurğulanmışdır ki, Rusiya OYRM üzrə öhdəliklərini pozur, ABŞ isə müqavilənin şərtlərinə tamamilə riayət edir. Sənəddə, həmçinin qeyd olunmuşdur ki, OYRM-in qorunub saxlanması yalnız Rusiyadan asılıdır. NATO-nun baş katibi Yens Stoltenberq bildirmişdir ki, alyans OYRM-i xilas etmək üçün Rusiyaya son şans verir.

ABŞ rəsmilərinin bəyanatlarından aydın olur ki, Vaşinqtonun OYRM-dən çıxmasına səbəb təkcə Rusiyanın müqaviləni pozması deyil. Vaşinqtonun niyyəti, ilk növbədə, müqaviləyə yeni tərəfləri qoşmaqla yeni sazişin bağlanmasına nail olmaqdır. ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Con Bolton ötən ilin oktyabrında Moskvada səfərdə olarkən qeyd etmişdir ki, yeni OYRM-i ərsəyə gətirmək təkcə ABŞ və Rusiyanın imkanı xaricindədir: "Bir sıra ölkələr var ki, orta mənzilli raketlər, qanadlı raketlər istehsal edir. Bunlar, əlbəttə, Şimali Koreya və Çindir. ABŞ və Rusiya üçün qeyri-adi vəziyyət yaranır: indi ikitərəfli saziş, Sovet İttifaqı dövründə olduğu kimi, hər şeyi əhatə edən müqavilə deyil". Bolton qeyd etmişdir ki, hazırkı vəziyyətdə Rusiya bu prosesin oyunçularından yalnız biridir. Ona görə də ABŞ hesab edir ki, təkcə iki ölkə bu problemi tamamilə həll edə bilməz.

Lakin Vaşinqtonun OYRM iştirakçılarının sayını artırmaq və bu yolla qüvvədə olan müqavilənin şərtlərini Çin, KXDR kimi ballistik raketlər istehsal edən ölkələrə şamil etməsi elə də asan deyil. Çin və Şimali Koreyadan başqa, ballistik və qanadlı raketlərə malik olan Böyük Britaniya, Fransa, Hindistan, Pakistan kimi ölkələr də var. Onları yeni müqaviləyə cəlb etmək çətindir, çünki OYRM ikitərəfli sazişdir. Yeni çoxtərəfli müqavilənin hazırlanması isə tamamilə başqa bir məsələdir və hazırkı mərhələdə real görünmür.

Moskva ABŞ və NATO-nun mövqeyinə sərt reaksiya vermişdir. Rusiya Prezidenti Vladimir Putin bildirmişdir ki, ABŞ-da ortamənzilli raketlər peyda olsa, belə raketləri Rusiya da yaradacaq. Rusiya Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Valeri Gerasimov qeyd etmişdir ki, Vaşinqtonun addımları cavabsız qalmayacaq. O xəbərdarlıq etmişdir ki, OYRM qüvvədən düşsə, Rusiyanın cavab zərbəsinin potensial hədəfləri ərazisində Amerika raketləri yerləşdirən ölkələr olacaq.

Tərəflərdən heç biri geri çəkilmək fikrində deyil. Bu isə dünyada son dərəcə təhlükəli situasiyanın yaranacağını təxmin etməyə imkan verir. Belə ki, OYRM-in ləğv olunması strateji sabitliyin pozulmasına və nüvə silahlarına nəzarət prinsiplərinin yoxa çıxmasına gətirib çıxarar. Eyni zamanda OYRM dağılandan sonra qüvvəsi iki ildən sonra bitəcək Strateji Hücum Silahlarının İxtisarı və Məhdudlaşdırılması haqqında Müqavilə (SHS-3) təhlükə altında qalacaq. Hadisələrin bu istiqamətdə inkişafı nəticə etibarilə nüvə silahının yayılmaması haqqında çoxtərəfli müqavilənin, həmçinin atmosferdə, kosmik məkanda və su altında nüvə silahının sınağının qadağan edilməsi haqqında 1968-ci ildə SSRİ, ABŞ və Böyük Britaniyanın imzaladığı müqavilənin dağılmasına gətirib çıxara bilər. Üstəlik, sürətlə silahlanmanın yenidən başlaması külli miqdarda maliyyə vəsaitinin müdafiəyə sərf edilməsi deməkdir. Belə olan təqdirdə hətta yaxın gələcəkdə dünyanın mənzərəsini təsəvvür etmək çətin deyil.

Təəssüf ki, hadisələrin gedişi sürətlə silahlanmanın qayıtmayacağını proqnozlaşdırmağa imkan vermir. Doğrudur, dialoqun mümkünlüyündən danışanlar da var. Lakin bu da hazırkı mərhələdə söz-söhbətdən başqa bir şey deyil. Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkovun dediyinə görə, Vaşinqton "bizə ikitərəfli kanallarla yüksək siyasi səviyyədə təsdiqləyib ki, bu qərar qətidir və dialoqa çağırış deyil". Yəqin ki, şərhə ehtiyac yoxdur.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***



Sağlıq olsun

# Ölüm qasırğası

*Təhlükədən necə qorunmalı?*



Baş, boyun ağrıları, arterial təzyiq, ürəkdə sıxılma…

## Həkim məsləhəti

**Son zamanlar, yer üzərində güclü geomaqnit qasırğalarının olması ilə bağlı məlumatlar verilir, həmin günlərdə əhaliyə xüsusilə diqqətli olmaları barədə xəbərdarlıqlar edilir. Bəs, görəsən, maqnit qasırğası insanların səhhətinə necə təsir edir? Onun mənfi təsirlərindən qorunmaq üçün hansı tədbirlərdən istifadə etmək lazımdır?**

Nevropatoloq Rima İbadova deyir ki, təbiət dəyişiklikləri insanlara birbaşa təsir edir. Bura maqnit qasırğaları, mövsüm temperaturunun artması, daşqınlar, hava kirlənmələri də daxildir: "Bizim iqlimimizə daha çox təsadüf edən təbiət dəyişikliyi maqnit qasırğalarıdır. Xüsusilə meteohəssas insanlar bu cür dəyişilmələrə qarşı daha həssas olurlar. Arterial təzyiqi yüksək olan, hipertoniya xəstəliyi olan, infarkt keçirən insanlar bundan daha çox əziyyət çəkirlər".

Rima İbadova deyir ki, maqnit qasırğası olan zaman insanlarda xroniki yorğunluq özünü göstərir. Həmçinin gərginlik, baş və boyun ağrıları, arterial təzyiqin oynaması, ürəkdə sıxılma olur. Psixoloji baxımdan depressiya, həyəcan yaranır. Hətta bəzi hallarda intihara cəhd kimi psixi problemlərin də ehtimalını artırır. Maqnit qasırğası zamanı qanda adrenalinin, əhvali-ruhiyyəmizə təsir edən hormonların miqdarı da dəyişir, qanın laxtalanması artır.

Həkim məsləhət verir ki, öncə həmin günlərdə açıq havada işləyən şəxslər mümkün qədər havada olmaqdan çəkinməlidirlər: "Xüsusilə insult, infarkt kimi problemi olan insanlar özlərini qorumalıdır. Arterial təzyiq yüksəkdirsə, mütləq təzyiqi salan dərmanlar istifadə olunmalıdır. 35-40 yaşdan sonra müəyyən qan durulducularından istifadə məsləhətdir. Həmçinin bol maye qəbul olunmalı və qidalanmaya nəzarət edilməlidir. Daha yüngül və antioksidant tərkibli qidalar yeyilməlidir. Çünki antioksidantlar da bizim əhvalımıza təsir edən faktorlardandır. Bu baxımdan üzüm, banan, yaşıl çay kimi qidalar məqsədəuyğundur".

Nevropatoloq xüsusilə vurğulayır ki, geomaqnit qasırğasının sağlamlığa mənfi təsirini azaltmaq üçün telefon, kompüter, planşet, televizor kimi əşyalardan minimum istifadə məsləhətdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Bilirik?



- Gülüş zamanı insanın 17 əzələsi "işləyir".
- Bütün ömrü boyu insanın dərisi min dəfə dəyişir.
- Göy gözlü insanlar ağrılara daha həssas olur.
- İnsanın dilinin izi də barmaq izləri kimi unikaldır.
- İnsanın gözü 10 milyon rəng çalarını seçməyə qadirdir.
- İnsanın ayaq sümüyü betondan daha sərtdir.



- Açıq gözlə asqırmaq qeyri-mümkündür.
- Yaşlı insanın bədənində olan sinirləri sıra ilə düzsək uzunluğu 75 km-ə çatar.
- İnsanın ürəyi il ərzində 36 milyon 800 min dəfə döyünür.



- İnsanın ağız boşluğunda 2 min dad reseptoru var.
- Dünyada ən çox yayılmış xəstəliklər diş əti xəstəlikləridir.
- İnsan bir gün ərzində 28-33 min litr hava, 500-700 litr oksigen, 2 kiloqram qida istifadə edir.
- İnsan uzun müddət bir böyrək və ağciyərlə, mədəsiz, dalaqsız yaşaya bilər, amma qaraciyərsiz bir dəqiqə belə yaşaya bilməz.
- Bir kilo limonun tərkibində bir kilo çiyələkdən daha çox şəkər var.



## Min bir dərdin dərmanı

# İTBURNU

Şəfalı, ətirli və faydalı



**İtburnu xalq təbabətində həm təzə, həm də qurudulmuş şəkildə çox geniş istifadə olunur. Bu giləmeyvənin nadir xüsusiyyətləri onu bir çox xəstəliklər və pozulmalar zamanı olduqca təsirli müalicəvi vasitə edir.**

Bu giləmeyvə zəngin kimyəvi tərkibinə malikdir: vitaminlər (C, B qrupu, P, K, E), karotin, minerallar (kalium, kalsium, maqnezium, dəmir, fosfor, mis və s.), orqanik turşular (alma turşusu, limon turşusu), efir yağları, fitonsidlər, pektinlər və s. Məhz bu səbəbdən itburnu təbii polivitamin sayılır. İlk növbədə itburnu C vitamini ilə çox zəngindir. C vitamini orqanizmdə gedən bir çox proseslərdə iştirak edir, güclü antioksidantdır. Bu o deməkdir ki, bu vitamin orqanizmi qocalma və dağılma proseslərindən qoruyur, bu prosesləri ləngidir. İtburnu insanın immun sistemini möhkəmləndirir, orqanizmin virus və infeksiyalarına qarşı davamlılığını artırır.

C vitamini və rutinlə zəngin olan itburnu damarların elastikliyini artırır, damarları möhkəmləndirir, varikoz xəstəliyi zamanı təbii müalicəvi vasitə kimi istifadə oluna bilər. Bundan əlavə itburnu damarları artıq xolesterindən təmizləyir və bu səbəbdən ateroskleroz xəstəliyinin profilaktikasında geniş istifadə olunur.

Sidikqovucu təsirinə malik olan itburnu bəzi böyrək və sidik kisəsi xəstəlikləri zamanı köməkçi müalicəvi vasitə kimi istifadə olunur.

İtburnu, həmçinin ödqovucu təsirinə malikdir və bu səbəbdən xolesistit (öd kisəsinin iltihabı) xəstəliyinin müalicəsində istifadə olunur.

İtburnu ürək-damar sisteminə və qanın tərkibinə müsbət təsir edir, arterial təzyiqinin tənzimlənməsinə kömək edir. Yüksək təzyiqdən əziyyət çəkənlərə itburnu dəmləməsi kömək edə bilər. İtburnu sinir sisteminə də müsbət təsir edir, yaddaşı möhkəmləndirir. Daha çox itburnu dəmləməsindən istifadə olunur, amma dəmləməni gün ərzində 1-2 stəkan miqdarında içmək olar.

## Xalq təbabəti

# Ömrünüzü uzadacaq 5 dəqiqəlik sirlər

**Hər gün də olmasa, 2 gündən bir hər dəfə 3-5 dəqiqə bu prosedurlara əməl etsəniz, ömrünüz kifayət qədər uzun, sağlam olacaq. Bütün bu qaydaları amerikalı fizioloq alimlər müxtəlif qədim sivilizasiya və mənbələrdən toplayıb, ən yaxşılarını qeydə alıb və özləri də sınayıblar.**



### Pilləkənlə qalxmaq yox, enmək faydalıdır

Çox həkimlər insanlara pilləkənləri piyada qalxmağı məsləhət görür ki, bu ürək-qan damar sistemi üçün yaxşıdır. Amma əziyyətli iş olduğundan çoxları bu qaydaya əməl etmir, üstəlik pilləkən çıxmaq ürək üçün artıq yükdür. Az adam bilir ki, pilləkənlərlə üzü aşağı düşmək ürək və əzələlər, bədən fiqurası üçün daha yaxşıdır. Pilləkənlə düşərkən demək olar ki, heç işləməyən tənbəl əzələlər və bağlar da işləyir. Xüsusən bel, çanaq, diz dibi oynaqlar, əzələlər yaxşı məşq edir.

### Dilinizin altına bir çimdik dəniz duzu qoyun

Hər səhər və axşam yatanda dilinizin altına bir-iki ədəd iri dənəli dəniz duzu qoyun. Duz əriyib limfalarla sovrulacaq. Əgər angina, karies, qrip varsa, bir stəkan suda bu duzdan həll edib, qarqara edin.

### Nəfəs almağı saxla

Dərindən, çox hava almaqla nəfəs əslində yaxşıdır. Amma 92 il yaşamış kardioloq Amosov deyib ki, əksinə, nəfəs almağı saxla. Bütün hüceyrələr kəskin yüklənməyə və havasızlığa ehtiyac duyur. Bunun üçün onlara oksigen axınını 2-3 dəqiqəlik də olsa kəsməlisən. Dərindən nəfəs al və saxla. Ən azı 1-2 dəqiqə nəfəs almadan dayan. Getdikcə dəqiqə sayını artır. Hüceyrələrin bu texnikadan sonra yeniləNəcək, daha aktiv çalışacaq. Bu tənəffüs məşqi üzrə dünya rekordu 18 dəqiqə olub.

### Gözlərini yum

Ən ideal istirahət gözləri yummaqdır. Əgər gün ərzində müxtəlif vaxtlarda gözlərini 3-5 dəqiqəlik yumub, heç nə görməsən, həm gözlərin, həm beynin razı qalacaq. Gözlərini yumub, əlini alnına gözünün üstünə qoy, amma göz qapaqlarına toxunma. Çalış gözünü yumduqda gözlərin qaranlıqdan başqa bir şey görməsin.

### Qulaqlarını masaj et

Şərq tibbinə görə, qulaqlarda 11 Ay nöqtəsi, kanallar yerləşir. Bu nöqtələr daxili orqanlarla bağlıdır. Qulağın ucunda çox sayda sinir ucları da var. Bu hissə çox həssasdır və beyinə aktiv siqnallar ötürür. Bu hissəni aktiv masaj etməklə, sıxmaqla çox böyük faydalar əldə edəcəksən.

### Karandaşı dişlərinizdə sıxıb, hərflər yazın

Kompüter, televizor, telefon qarşısında əyilib bütün əzələ, bağları, damarları gərilən, quruyan və tənbəlləşən boyun insanın əsas həyat orqanı olan beynini məhv etməyə başlayır. Hər gün 5 dəqiqə bu hərəkətə vaxt ayırın: dişlərinizdə karandaşı sıxıb, havadaca qarşınızda əlifbanın bütün hərflərini vizual yazın. Çətin ola bilər, amma bundan sonra boyun da, beyin də sizə minnətdar olacaq.

# Dünya sirk ulduzları Bakıda



*Paytaxtın sakinləri və qonaqları bayram günlərində asudə vaxtlarını şən və mənalı keçirmək üçün Bakı Dövlət Sirkini seçirlər*

Asudə vaxtların daha səmərəli keçməsi üçün, adətən, müxtəlif ünvanlar seçilir. Bunlar yalnız kino-teatr, konsert salonları, yaxud turizm marşrutları deyil. Belə əyləncə məkanlarından biri də mərkəzi şəhərlərdə fəaliyyəti ilə daim diqqət çəkən sirklərdir. Bakı sirki də daim tamaşaçı nəfəsi ilə isinib. 1945-ci ildə Azərbaycanın ilk milli sirk truppası kimi yaradılan Bakı Dövlət Sirki də belə əyləncə mərkəzlərindən biri kimi tanınır. Xüsusən ilin əlamətdar və tarixi, eləcə də bayram günlərində burada tamaşaçı əlindən tərpənmək olmur. Ötən ilin son günlərindən başlayaraq, Bakı Dövlət Sirkində yenidən anşlaqdır: kiçikyaşlı məktəblilər doğmaları, xüsusən baba və nənələri ilə yollarını məhz buradan salırlar. Elə sirkin özünün də keçdiyi yol uzun və keşməkeşli olub.

Bakı Dövlət Sirkinin direktoru, əməkdar mədəniyyət işçisi Vaqif Bağırzadə əyləncə və istirahət mərkəzinin dünəni və buğunu barədə fikirlərini bölüşərkən bildirdi ki, yüz ildən artıq bir dövr ərzində insanlara həyəcan və sevinc dolu anlar yaşadan sirkin maneji fanatları hesabına bu gün də öz missiyasını - sənətə və insanlara xidmət vəzifəsini yerinə yetirir: "Sirkin səhnəsində dünyanın müxtəlif ölkələrindən dəvət olunan kollektivlər çıxış edirlər. Yaradıldığı ilk vaxtlar tamaşa yalnız sirk nömrələrindən ibarət olmayıb. Truppanın tərkibinə estrada və balet artistlərinin çıxışları da salınıb. Ənvər Quliyev, "Ulduz bacıları", kəndirbaz Əlixan və digər artistlərin bir-birindən maraqlı nömrələrindən ibarət truppanın fəaliyyəti dövründə "Zirvədən işıq" adlı proqramla Bakı sirki MDB məkanında, eləcə də Afrika, Asiya, Amerika və Avropada daimi qastrollarda olub".

## Nikitinlərin sirk binasında milli tamaşalar

Bakı Dövlət Sirkinin hazırkı binası 1967-ci ildə istifadəyə verilib. Memarları Ənvər İsmayılov və Leontyev olan, tikildiyi dövrdə texniki imkanlarına görə çox müasir hesab edilən bina dünya sirkləri arasında seçilir.

Həmsöhbətimiz deyir ki, 1890-cı illərdə rus sirkinin ustadı sayılan Nikitin qardaşları Bakıda ilk stasionar sirk-heyvanxana açıb, 1904-cü ildə isə indiki Nəsimi bağının yerində Şərqdə sirk-teatr binası inşa etdiriblər: "Nikitinlərin rəhbərliyi ilə qrupun çıxış etdiyi bina təəssüf ki, 1906-cı ildə yanıb. Nikitinlər elə həmin il onun yerində daşdan yeni sirk binası tikdiriblər. On ildən sonra isə Yefimovlar Nikitin qardaşlarının sökülmüş sirkinin yerində başqa birini inşa etdiriblər. Sirkin başıbəlalı binalarının tez-tez yanğına məruz qalmasının min cür səbəb-bəhanələri olub. Hətta 1924-cü ilin dekabrında da sirkin binası yanıb. Az vaxt ərzində Y.Kudryavtsev də burada öz sirkini qurur. Həmin illər ərzində onun səhnəsində Rusiyanın müxtəlif şəhərlərindən gələn sirk truppaları çıxış edib. O dövrün məşhur sirk truppaları Tanti qardaşlarının, Lerrinin rəhbərlik etdiyi kollektivlərin də Bakı qastrollarının sayı xeyli artıb".

## Bakı Sirkinin kolxoz filialı

Maraqlıdır ki, Bakı sirkinin kolxoz filialı da olub. Onun əsasını qoyanlar isə yerli özfəaliyyətçilər, kəndirbazlar və xalq pəhləvanları idi.

1945-ci ildə Azərbaycanda ilk peşəkar sirk kollektivi yaradılıb. Kollektiv Bakı Sirkinin kolxoz filialının və Azərbaycan estrada artistlərindən, həmçinin bədii özfəaliyyətçilərdən təşkil olunub. Kollektivin "Azərbaycan toyu" adlı ilk proqramını dahi bəstəkar Üzeyir Hacıbəyli hazırlayıb. Proqramın rejissoru Soltan Dadaşov, bəstəkarı Səid Rüstəmov, baletmeysteri Əminə Dilbazi, mətnin müəllifi Süleyman Rüstəm olub.

Sirk ustalarının adını yaşadan onların bir-birindən maraqlı, rəngarəng, həm də "qorxulu" nömrələri olub. Məhz buna görə məşhur kəndirbaz Rza Əlixan, sim üzərində rəqs edən "Ulduz bacıları" - Sona, Şəfiqə və Gülnaz, təlim görmüş itlərlə şou göstərən Maralxanım Şirinova, jonqlyor Xosrov Abdullayev, akrobat İsmayıl Mirzəyev, "Üç qardaş" akrobat nömrəsi ilə tanınan Nikolay Qorkovenko, Xosrov Abdullayev və Viktor Xelaya, ilanoynadan Sofu Cəfərovun adları sirksevərlərin yaddaşına yazılıb. Bunlarla yanaşı, Yunis və Yusif Ağayev qardaşlarının "Nəsrəddin və Bəhlul Danəndə" səhnələri, "Zorxana" və milli güləş nümayişləri də unudulmayan oyunlar sırasına daxildir. Xalq pəhləvanı Sali Süleymanın, klounlar - Qasım Məlikovla Kamal Abdullayevin çıxışları da o dövrün ən yaddaqalan nömrələri hesab edilir.

## Gələrsən, görərsən...

Bakı Dövlət Sirki həmişəki kimi, bu gün də tamaşaçı qıtlığı çəkmir, əksinə, şou-tamaşa məkanının qapısını döyənlərin sayı ildən-ilə artmaqdadır. Çünki burada bir-birindən maraqlı, əyləncəli proqramlar nümayiş etdirilir. Bakı Dövlət Sirkinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Mahir Hümbətovun sözlərinə görə, son illər tamaşa salonundakı anşlaqın bir çox səbəbləri var ki, onlardan ən əsası ölkə ərazisində asudə vaxtın səmərəli təşkilinə daha çox diqqət yetirilməsidir. Sirkdə də bu amil özünü qabarıq şəkildə göstərir: "...Teatrdan, konsert salonlarından fərqli olaraq, sirk tamaşalarının daha çox diqqət çəkməsi həm də burada idmanla incəsənətin müxtəlif sahələrinin sintezləşməsi ilə proqramların tərtib edilməsidir. Sirkin mövsümi xarakter daşıması təsadüfi deyil. Xüsusən əlamətdar günlərdə sirklər tamaşaçılarla dolub-boşalır. Bu il də Bakı Dövlət Sirkinin tamaşaçıları yaş baxımından rəngarəngdir: uşaqdan-böyüyə Bakı sakinləri, eləcə də paytaxtın qonaqları, hətta turistləri belə tamaşalara tələsirlər. Ötən ilin payız mövsümü oktyabr ayının sonlarında başlayıb. İndiyədək iki proqram göstərilib. Üçüncü proqram isə aprel ayının əvvəllərindən, daha doğrusu, Novruz bayramı ərəfəsindən başlayacaq. Proqramda bir-birindən maraqlı nömrələr var. Rusiyanın məşhur "Nikulin" və Belarus sirklərinin ustaları qonağımızdır. Proqram yanvar ayının 13-dək davam edəcək. Burada yalnız şən klounlar deyil, eyni zamanda əhliləşdirilmiş vəhşi heyvanlarla nömrələr də göstərilir. Bunlar da azyaşlı tamaşaçıların daha çox sevdikləridir. Əlbəttə, cikitlər qrupu ilə akrobatların çıxardığı "hoqqa"lara tamaşaçılar gün ərzində 3 dəfə baxmaq imkanı əldə ediblər. 5 yaşadək uşaqlar sirk tamaşalarına pulsuz buraxılır. Bu, artıq ənənə halını alıb: son 16 ildir ki, davam etdirilir. 3 manejli sirkin tamaşa salonu 2 min nəfərlikdir. Burada qiymətlər sırasına görə 10, 12, 15 və 20 manatdır".

## Dünyada məşhurlarımız...

Yarandığı ilk illərdə Bakı Sirki SSRİ-nin Ümumittifaq Sirklər Birliyinin tərkibində olduğu üçün gözdən-könüldən uzaq düşmüşdü. Digər mədəniyyət sahələrində olduğu kimi, burada da lazımi şəraitin yaradılması ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Dünyanın məşhur "Sirk-disuley"nin ustalarının adları arasında həmyerlimiz Üzeyir Cəfərovun da olması ürəkaçan faktlardandır. Yaxud Çina Franklina adı ilə tanınmış kloun Elçin Şirinovu sirksevərlərimiz də gözəl tanıyırlar. Məhz belə ustadların maraqlı proqramları ilə Bakı Dövlət Sirki son illər dünyanı dolaşmaqdadır. Belə sənətkarlarımızın səsi Almaniya, Rusiya, Niderland, İtaliya, Çin, Çili, Argentina... kimi ölkələrdən gəlir. Onlar həmin ölkələrin məşhur sirklərinin tərkibində öz çıxışları ilə xalqımızın mədəniyyətini təqdim edirlər. Ümumiyyətlə, sirklərin artistləri daim səfərlərdə olurlar. Həm də hər nömrənin hazırlanması üçün az qala, bir il vaxt sərf edilir. Bu gün Bakı sirkində göstərilən proqramlar da zənginliyi ilə sevilir və baxılır. Axı, proqramda "Lasta-rika" kimi şoular da var. "Sözəbaxan" pinqvinlərlə göstərilən belə nömrələr tamaşaçılarda xoş ovqat və yüksək əhvali-ruhiyyə yaradır axı...

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

---

"Bakı Metropoliteni" QSC "Xətai" stansiyasında sağ tunel və pilon hissədə alüminium vərəqələrdən çətirin sökülməsi, müəyyən hissəsinin bərpa edilməsi və yerinə quraşdırılması işlərinin satın alınması üzrə

*Təkrar*

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Əlixan Osmanov; telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** "Xətai" stansiyasında sağ tunel və pilon hissədə alüminium vərəqələrdən çətirin sökülməsi, müəyyən hissəsinin bərpa edilməsi və yerinə quraşdırılması işlərinin satın alınması

**İştirak haqqı - 150 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR-TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 yanvar 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 04 fevral 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 05 fevral 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

# Beynəlxalq aləm

## Benin sahillərinin yaxınlığında rusiyalı dənizçilər oğurlandı



Qvineya körfəzində dəniz quldurları Panama bayrağı altında üzən "MSC Mandy" yük gəmisinə hücum edərək heyətin 6 üzvünü, o cümlədən gəminin kapitanını oğurlamışlar. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir. Rusiya Dəniz və Çay Nəqliyyatı Federal Agentliyinin məlumatına görə, oğurlananlar Rusiya vətəndaşlarıdır. Digər 18 heyət üzvü arasında yaralı və zərərçəkən yoxdur.

Rusiyanın Benindəki səfirliyinin nümayəndəsi TASS agentliyinə bildirmişdir ki, hücum zamanı gəmidə 26 nəfər olmuşdur. Onların 2-si Gürcüstan, 4-ü Ukrayna, 20-si Rusiya vətəndaşıdır.

Beynəlxalq Dəniz Bürosunun məlumatına görə, ötən ilin ilk 9 ayı ərzində beynəlxalq sularda 156 piratçılıq və silahlı qarət halı qeydə alınmışdır. Onların 57-si Qvineya körfəzində baş vermişdir.

## Meksika hökuməti miqrant sığınacağını bağladı



Meksika hökuməti ABŞ-la sərhədin yaxınlığında yerləşən Tixuana şəhərinin ətrafındakı mərkəzi amerikalı miqrantların sığınacaqlarından birini bağlamaq barədə qərar qəbul etmişdir. "Excelsior" qəzeti xəbər verir ki, bu təşəbbüs sığınacaq sakinlərinin müqaviməti ilə üzləşmişdir.

Məlumata görə, sanitar xidmətlərin nümayəndələri normaların pozulmasına görə təxminən 150 miqrantın yaşadığı sığınacağın girişlərini bağlamışlar. Qaçqınlara digər düşərgəyə köçmək təklif olunmuşdur. Lakin bu qərar etirazla qarşılanmış və bundan sonra sığınacağa polis əməkdaşları gəlmişlər. Onlar miqrantlara köçmək üçün 12 saat vaxt vermişlər.

Xatırladaq ki, ötən il noyabrın axırlarında təxminən 500 miqrant Tixuanadan ABŞ ərazisinə keçməyə cəhd etmişdir. Amerikalı sərhədçilər onlara qarşı gözyaşardıcı qazdan istifadə etmişlər. Növbəti gün Meksika hökuməti həmin hadisənin 98 iştirakçısını ölkədən deportasiya etmiş və Tixuanada təhlükəsizlik tədbirlərini gücləndirmişdir.

## Tramp demokratları çoxillik "şatdaun"la hədələyir



ABŞ Prezidenti Donald Tramp büdcə böhranı nəticəsində bir sıra federal orqanların işinin qismən dayandırılmasının ("şatdaun") çox uzun müddət davam edə biləcəyinə hazırdır. Demokrat senator Çak Şumerin dediyinə görə, dövlət başçısı Ağ evdə demokratların liderləri ilə görüşündə belə bir vəziyyətin aylarla, hətta illərlə davam edə biləcəyindən söhbət açmışdır.

Eyni zamanda Tramp büdcə böhranının həlli barədə danışıqların növbəti mərhələsinin səmərəli olduğunu qeyd etmişdir. Öz növbəsində ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri, demokrat Nensi Pelosi görüşün bəzən polemika xarakteri daşıdığını bildirmişdir. Onun dediyinə görə, tərəflər danışıqları davam etdirməyə razıdırlar.

Xəbər verildiyi kimi, Nümayəndələr Palatası bir sıra federal orqanların maliyyələşdirilməsi barədə qanun layihələri qəbul etmişlər. Konqresmenlər 2019-cu il fevralın 8-dək Daxili Təhlükəsizlik Nazirliyinin fəaliyyətinin maliyyələşdirilməsinə səs vermişlər. O vaxtadək Konqres ABŞ-ın cənub sərhədinin qeyri-leqal miqrasiyadan müdafiəsi məsələsində kompromis əldə etmək niyyətindədir. İndi qanun layihələri Senatda qəbul olunmalıdır. Oradakı yerlərin yarısından çoxunu respublikaçılar tuturlar.

Xatırladaq ki, dekabrın 21-də ABŞ Konqresi dövlət başçısı ilə fikir ayrılığı üzündən növbəti maliyyə ili üçün büdcə layihəsini təsdiqləməmişdir. Tramp Meksika ilə sərhəd boyu divarın inşası üçün 5,6 milyard dollar ayrılmağı tələb edir. Demokratlar isə sərhədin müdafiəsinə cəmi 1,3 milyard dollar yönəltməyə razıdırlar.

## Suriyada 21 dinc sakin hava hücumunun qurbanı oldu



ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiya Suriyanın Deyr əz-Zor əyalətində YPG/PKK terrorçu təşkilatının zəbt etdiyi rayona hava zərbələri endirmişdir. Nəticədə 10 dinc sakin, o cümlədən 4 uşaq həlak olmuşdur. Bu barədə TRT telekanalı xəbər verir. Bundan sonra koalisiya qüvvələri əyalətdə, Fərat çayının şərq hissəsində yerləşən Şifə şəhərini bombardman etmişdir. Nəticədə bir ailənin 11 dinc üzvü həlak olmuşdur.

Beləcə iki gün ərzində 21 dinc sakin koalisiya qüvvələrinin aviasiya zərbələrinin qurbanına çevrilmişdir.

## Avstraliyanı meşə yanğınları bürüyüb



Dünən Avstraliyanın cənub-şərqində meşə yanğınları başlamışdır, halbuki hava proqnozuna əsasən, temperaturun aşağı düşməsi vəziyyəti sabitləşdirməli idi. Bu barədə yerli KİV xəbər verir.

Sidney ştatının ikinci böyük şəhəri olan Viktoriyanın şərq hissəsində başlamış yanğından sonra ölkənin 14 şəhərində sakinlərə xəbərdarlıq edilmişdir.

Xilasetmə xidmətinin nümayəndəsi bildirmişdir ki, Melburndan təxminən 200 kilometr şərqdə yerləşən Rozdeyl şəhərinin ətrafında tüğyan edən yanğın 10 min hektardan çox ərazini məhv etmişdir. "Yanğınsöndürənlər çox ciddi vəziyyətə düşmüş və sarsılmışlar" deyə ştatın fövqəladə hallar üzrə komissarı Endrü Krisp jurnalistlərə bildirmişdir.

---

## "ikisahil.az" yeni ildə yeni dizaynda




Çoxsaylı mətbu orqanlar sırasında özünəməxsus yeri olan və öz dəst-xətti ilə seçilən "İki sahil" qəzetinin "ikisahil.az" saytı 2019-cu ilin ilk günlərində yeni dizayn və təkmilləşmiş məzmunda oxucuların ixtiyarına verilib.

AZƏRTAC xəbər verir ki, ayrı-ayrı sahələr üzrə görülən işlərin, əldə olunan uğurların konkret bölmələrdə yerləşdirilərək, tez və asan şəkildə oxuculara çatdırılması təkmilləşmənin, yeniləşmənin, ən əsası daim qeyd etdiyimiz kimi, yeni texnologiyaların uğuru, perspektividir.

Yeni saytda diqqəti cəlb edən əsas yeniliklərdən biri də qəzetin təsisçisi, ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlu icrasına davamlı töhfələr verən, adı bu gün dünyanın nüfuzlu şirkətləri ilə eyni sırada çəkilən SOCAR-ın, eyni zamanda, onun ayrı-ayrı strukturlarının fəaliyyəti barədə dolğun məlumatların əldə olunması üçün "SOCAR" bölməsinin yaradılması, ölkə iqtisadiyyatının onurğa sütunu kimi dəyərləndirilən neft-qaz sənayesində yeniliklərin, nailiyyətlərin məhz bu bölmədə yerləşdirilməsidir.

Uğurlu başlanğıc davamlı uğurlar üçün əsasdır. "İki sahil" qəzetinin yeni ildə yeni tərtibatda saytla oxucularının görüşünə gəlməsi demokratik cəmiyyətin əsas atributlarından biri kimi dəyərləndirilən mətbuatın təkmilləşməsinin, yeniləşməsinin, operativliyi fəaliyyətinin əsas prinsipi kimi qəbul etməsinin təzahürüdür.

Qeyd etdiyimiz kimi, yeni sayt müasir tələblərə uyğun olaraq sadə, zövqlü, eyni zamanda, maksimum rahat oxunmanı təmin edən tərzdə yığılıb. Dizayndan əlavə, saytın məzmununda da yeniliklər diqqətçəkəndir. Əvvəlki dizaynda mövcud olan bölmələr də ümumiləşdirilərək istifadəçilərə təqdim olunub. Belə ki, quruluş və məzmun baxımından müasir texnologiyaların tələblərinə cavab verən yeni saytda "Siyasət", "Ordu", "SOCAR", "İqtisadiyyat", "Analitika", "Sosial", "Mədəniyyət", "Dünya", "Maraqlı", "İdman", "Köşə", "Qan yaddaşı" bölmələri yer alıb. İstifadəçilər bu bölmələr vasitəsilə 27 ildən artıq müstəqillik tarixinə malik olan Azərbaycanın ayrı-ayrı sahələr üzrə dünəninə, bu gününə və sabahına baxış olmaqla operativ məlumatları əldə edə bilərlər.

---

**ALLAH RƏHMƏT ELƏSİN!**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Yalçın Abdullayevə anası

**TÜKƏZBAN ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7866
Sifariş 3
Qiyməti 40 qəpik